ADNAN OKTAR (HARUN YƏHYA)

# QURAN

## MÖCÜZƏLƏRİ - 2



ADNAN OKTAR (HARUN YƏHYA)

# QURAN MÖCÜZƏLƏRİ — 2

*Quranın elmi möcüzələri, gələcək və keçmişlə bağlı xəbərləri, riyazi şifrələmələri və ədəbi mükəmməlliyi — 14 əsr öncədən bu günə üzərində elm işığı saçan İlahi möcüzələr.*

— 11 fəsil —

# Mündəricat


1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Birinci hissə: Quranın elmi möcüzələri 9

4 İkinci hissə: Quranın gələcəklə əlaqədar xəbərləri 34

5 Üçüncü hissə: Quranın keçmiş dövrlərlə əlaqədar xəbərləri 50

6 Dördüncü hissə: Quranın riyazi möcüzələri 74

7 Beşinci hissə: Quranın ədəbi yöndən mükəmməlliyi 97

8 Nəticə 114

9 Əlavə bölmə: Təkamül yalanı 116

10 Ədəbiyyat 144

11 Şəkilaltı yazıları 147

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

BİRİNCİ HİSSƏ

# Quranın elmi möcüzələri

## GİRİŞ

Allah bundan 14 əsr əvvəl, insanlara yol göstərici kitab olan Qurani Kərimi endirmiş və bütün insanlığı Qurana tabe olaraq qurtuluşa çatmağa dəvət etmişdir. Ayədə də bildirildiyi kimi Quran "aləmlərə bir zikrdən (öyüd, xatırlatma, hökm və üstün şərəf) başqa bir şey deyil" (Qələm surəsi, 52). Quran endirildiyi gündən qiyamət gününə qədər də, insanlığın yeganə yol göstəricisi olan son İlahi kitab olacaqdır.

Quran endirildiyi gündən bu günə qədər hər dövrdə yaşayan hər insan qrupunun anlaya biləcəyi, asan və aydın olar bir dilə malikdir. Allah, Quranın bu üslubunu "Biz Quranı yada salmaq üçün asanlaşdırdıq..." (Qəmər surəsi, 22) ayəsiylə xəbər verər. Quranın, eyni zamanda ədəbi dilinin mükəmməlliyi, bənzərsiz üslub xüsusiyyətləri və ehtiva etdiyi üstün hikmət də, onun Allahın sözü olduğunun qəti dəlillərindəndir.

Quranın bu xüsusiyyətləri ilə yanaşı, Allahın sözü olduğunu isbat edən bir çox möcüzəvi xüsusiyyəti vardır. Bu xüsusiyyətlərdən biri, ancaq 20-ci və 21-ci əsr texnologiyası ilə bəzi elmi həqiqətlərin 1400 il əvvəl Quranda bildirilmiş olmasıdır.

Əlbəttə ki, Quran elmi kitabı deyil. Lakin müxtəlif ayələrində, son dərəcə əsaslı və hikmətli izahat içində çatdırılan bəzi elmi həqiqətlər, ancaq 20-ci əsr texnologiyası ilə kəşf edilmişdir. Quranın endirildiyi dövrdə elmi olaraq müəyyən olunması mümkün olmayan bu məlumatlar, insanlara Quranın Allahın sözü olduğunu bir daha isbat etməkdədir.

Quranın elmi möcüzələrini anlamaq üçün, əvvəlcə bu İlahi kitabın endirildiyi dövrdəki elm səviyyəsinə nəzər salmaq lazımdır.

Quranın endirildiyi 7-ci əsrdə, Ərəb cəmiyyəti elmi mövzular haqqında saysız xurafata və batil inanca sahib idi. Kainatı və təbiəti araşdıracaq texnologiyaya sahib olmayan ərəblər, nəsildən-nəsilə çatdırılan əfsanələrə inanırdılar. Məsələn, səmanın dağlar sayəsində yuxarıda dayandığı sanılırdı. Bu inanışa görə Dünya düz idi və iki ucdakı yüksək dağlar bir dirək kimi göy qübbəsini saxlamaqda idi.

Ancaq Ərəb cəmiyyətinin bütün bu batil inanışları Quranla birlikdə ortadan qaldırıldı. Məsələn "göyləri dirəksiz yüksəldən..." (Rad surəsi, 2) ayəsi göyün dağlar sayəsində təpədə dayandığı inancını etibarsız etdi. Bunun kimi daha bir çox mövzuda, o dövrdə heç bir insanın bilmədiyi əhəmiyyətli məlumatlar Quranda verildi. İnsanların astronomiya, fizika, ya da biologiya haqqında çox az şey bildikləri bir dövrdə endirilən Quran, kainatın yaradılışından insanın meydana gəlməsinə, atmosferin quruluşundan, yer üzündəki tarazlıqlara qədər bir çox mövzuda kilid məlumatlar ehtiva etməkdə idi.

İndi, Quranda bəhs edilən bu elmi möcüzələrdən bir hissəsini birlikdə görək.



Tek yumurta əkizləri də daxil olmaqla, hər insanın barmaq izi yalnız ona aiddir. Başqa sözlə, insanların barmaq uclarında kimlikləri şifrələnmişdir. Bu şifrələmə sistemini bu gün istifadə olunan barkod sistemə bənzətmək mümkündür.



Barmaq izi ilə kimlik müəyyənləşdirmə sistemi (AFS) texnologiyası son 25 ildən bəri müxtəlif polis təşkilatlarında təsdiqlənmiş, qanuni üsul kimi istifadə edilməkdədir.

## Dişi bal arısı

*Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər düzəlt. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.*

**(Nəhl surəsi, 68-69)**



Hər arının bir çox vəzifəsinin olduğu arı koloniyalarındakı tək istisna erkək arılardır. Erkək arılar nə şanın müdafiə edilməsində, nə təmizliyində, nə qida toplamaqda, nə də pətək və ya bal istehsalında iştirak edərlər. Erkək arıların şan içindəki tək funksiyaları kraliça arını döllendiməkdir. Cütləşmə orqanları xaricində digər arılarda olan xüsusiyyətlərin demək olar ki, heç birinə sahib olmadıqları üçün erkək arıların kraliça arını dölləməkdən başqa bir iş etmələri də mümkün deyil.

Koloniyanın bütün yükü üzərində olan işçi arıların isə, kraliça arılar kimi dişi olmalarına baxmayaraq yumurtalıqları inkişaf etməmişdir, yəni sonsuzdurlar. Şanın təmizliyi, arı sürfələrinin və balalarının baxımı,

kraliça arı və erkək arıların bəslənməsi, bal istehsal etməsi, pətəklərin inşası və təmir işləri, şanın havalandırılması, şanın təhlükəsizliyi, nektar (bal), polen (çiçək tozu), su, qatran kimi vəsaitlərin toplanması və bunların şanda yığılması kimi vəzifələri vardır.

Ərəb dilində iki növ felin istifadəsi vardır və fellərin bu istifadələrindən, mübtədanın erkək yoxsa dişi olduğu aydın olmaqdadır. Necə ki, yuxarıdakı ayələrdə arı üçün istifadə edilən feillər (altından xətt çəkilmiş sözlər), feilin dişi üçün olan şəkliylə istifadə edilmişdir. Beləcə Quranda bal istehsalında çalışan arıların dişi olduğuna işarə edilməkdədir.1

Unudulmamalıdır ki, arılarla əlaqədar bu həqiqətin bundan 1400 il əvvəl bilinməsi mümkün deyil. Amma Allah bu həqiqətə diqqət çəkərək Quranın bir möcüzəsini daha bizə göstərmişdir.

## Baldakı şəfa

*Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər düzəlt. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.*

**(Nəhl surəsi, 68-69)**



Bal, yuxarıdakı ayələrdə vurğulandığı kimi, "insanlara şəfa" olma xüsusiyyəti daşımaqdadır. Elmdə ən qabaqcıl ölkələrdə, balın insan sağlamlığı baxımından əhəmiyyətindən ötəri, arıçılıq və arı məhsulları artıq başlı-başına

bir araşdırma sahəsi olmuşdur. Balın faydaları ümumi olaraq belə sıralana bilər:

Asanlıqla həzm edilər: İçindəki şəkərlərin bir başqa cins şəkərə (fruktoza qlükoza) çevrilə bilmə xüsusiyyəti sayəsində bal, yüksək miqdarda turşu ehtiva etməsinə baxmayaraq, ən həssas mədələr tərəfindən belə asanlıqla həzm edilər. Eyni zamanda bağırsaqların və böyrəklərin daha yaxşı işləməsinə köməkçi olar.

Sürətlə qana qarışar; sürətli enerji qaynağıdır: Bal ılıq suyla qarışdırıldığında 7 dəqiqə içində qana qarışar. Ehtiva etdiyi sərbəst şəkərlərdən ötrü beynin işləməsi asanlaşar. Bal, fruktoza və qlükoza kimi sadə şəkərlərin təbii bir qarışığıdır. Aparılan son araşdırmalara görə, şəkərlərin bu tərkibinə xas qarışığı yorğunluğun aradan qaldırılmasında ən təsirli üsuldur və idman fəaliyyətini artırmaqdadır.

Qan istehsalına dəstək olar: Bal, qan istehsalı üçün bədənin ehtiyac duyduğu enerjinin əhəmiyyətli bir hissəsini qarşılayar. Həmçinin qanın təmizlənməsinə də köməkçi olar. Qan dövranını təşkil edici və asanlaşdırıcı istiqamətdə təsiri vardır. Damar sərtliyinə qarşı əhəmiyyətli bir qoruyucudur.

Anti-mikrobdur: Anti-mikrob faktorlar müəyyən bakteriyaların, mayanın və kifin böyüməsinə mane olar. Balın bakteriyanın yaranmasına imkan verməyən xüsusiyyəti “inhibitor təsiri” olaraq adlandırılar. Balın anti-mikrob olmasını təmin edən bir çox səbəb vardır. Bunların arasında, mikroorqanizmlərin, böyümək üçün ehtiyac duyduqları su miqdarını məhdudlaşdıran yüksək şəkər tərkibli, yüksək turşu nisbəti (aşağı pH), bakteriyaları böyümələri üçün ehtiyac duyduqları azotdan məhrum buraxan tərkibli sayıla bilər. Balda hidrogen peroksid olması və balın ehtiva etdiyi antioksidləşdiricilər də bakteriyanın çoxalmasına mane olar.

Antioksidləşdiricidir: Sağlam yaşamaq istəyən hər kəsin xüsusilə antioksidləşdirici istehlak etməsi lazımdır. Antioksidləşdiricilər hüceyrələrdə normal maddələr mübadiləsinin zərərli yan məhsullarını təmizləyən komponentlərdir. Bunlar qidaların pozulmasına gətirib çıxaran və bir çox xroniki xəstəliyə səbəb olan dağıdıcı kimyəvi reaksiyaları yavaşlada bilən elementlərdir. Mütəxəssislər antioksidləşdirici baxımından zəngin qidaların ürək xəstəlikləri və xərçəng kimi xəstəlikləri önləyə biləcəyinə inanmaqdadırlar. Balın tərkibində də güclü antioksidləşdiricilər mövcuddur: Pinocembrin, pinobaxin, chrisin və galagin. Bunlardan pinocembrin, yalnız balda olan bir antioksidləşdiricidir.3

| Besin değerleri | 1 porsiyondaki ortalama miktar | 100 gr.'daki ortalama miktar |
|---|---|---|
| Su | 3.6 gr | 17.1 gr |
| Toplam karbonhidratlar | 17.3 gr | 82.4 gr |
| Fruktoz | 8.1 gr | 38.5 gr |
| Glikoz | 6.5 gr | 31.0 gr |
| Maltoz | 1.5 gr | 7.2 gr |
| Sakaroz | 0.3 gr | 1.5 gr |
| **Besinsel İçerik** | | |
| Toplam kalori (kilokalori) | 64 | 304 |
| Toplam kalori (kilokalori) (Yağ olarak) | 0 | 0 |
| Toplam yağ | 0 | 0 |
| Doymuş yağ | 0 | 0 |
| Kolestrol | 0 | 0 |
| Sodyum | 0.6 mg | 2.85 mg |
| Toplam karbonhidrat | 17 gr | 81 gr |
| Şeker | 16 gr | 76 gr |
| Diyet lifler | 0 | 0 |
| Protein | 0.15 mg | 0.7 mg |
| **Vitaminler** | | |
| B1 (Tiamin) | < 0.002 mg | < 0.01 mg |
| B2 (Riboflavin) | < 0.06 mg | < 0.3 mg |
| Nikotinik asit | < 0.06 mg | < 0.3 mg |
| Pantothenik asit | < 0.05 mg | < 0.25 mg |
| B6 vitamini | < 0.005 mg | < 0.02 mg |
| Folate | < 0.002 mg | < 0.01 mg |
| C vitamini | 0.1 mg | < 0.5 mg |
| **Mineraller** | | |
| Kalsiyum | 1.0 mg | 4.8 mg |
| Demir | 0.05 mg | 0.25 mg |
| Çinko | 0.03 mg | 0.15 mg |
| Potasyum | 11.0 mg | 50.0 mg |
| Fosfor | 1.0 mg | 5.0 mg |
| Magnezyum | 0.4 mg | 2.0 mg |
| Selenyum | 0.002 mg | 0.01 mg |
| Bakır | 0.01 mg | 0.05 mg |
| Krom | 0.005 mg | 0.02 mg |
| Manganez | 0.03 mg | 0.15 mg |
| Mineral tozu | 0.04 mg | 0.2 gr |

Vitamin və mineral anbarıdır: Bal fruktoza və qlükoza kimi şəkərlərlə yanaşı maqnezium, kalium, kalsium, natrium xlorid, kükürd, dəmir və fosfor kimi mineralları da ehtiva edər. Nektar və polen qaynaqlarının xüsusiyyətlərinə görə dəyişməklə birlikdə, balda B1, B2, C, B6, B5 və B3 vitaminləri var. Həmçinin mis, yod, dəmir və sink də az miqdarda mövcuddur.

## Yaraların müalicəsində istifadə edilər:

Yaraların müalicəsində istifadə edildiyində, balın havadan nəm çəkə bilmə xüsusiyyəti, sağalmağı sürətləndirərək yara izi qalmasının qarşısını alar. Çünki bal yaranın üzərini örtən yeni dərini meydana gətirən epitel hüceyrələrin böyüməsini sürətləndirər. Beləcə böyük yaralarda belə bal istifadə edildiyində toxuma nəqli edilməsi ehtiyacı ortadan qalxar.

Bal sağalma müddətinə daxil olan toxumaları yenidən böyümələri üçün xəbərdar edər. Yeni kapillyarlar meydana gəlməsini sürətləndirərək, dərinin daha dərindəki bağ toxumasının yerini alan fibroblastların böyüməsini təşviq edər və sağalmanın gücünü artıran kollagen liflərinin istehsalını sürətləndirər.

Balın yaranın ətrafındakı qabarıqlığı azaldan iltihab əleyhinə bir təsiri vardır. Bu, qan dövranını artırar; beləcə sağalma müddəti sürətlənmiş olar və hiss edilən ağrı azalar.

Bal yaranın altındakı toxumalara yapışmaz; bu səbəblə yeni yaranan toxumaların yırtılması və ağrı baş verməsi olmaz.

Radiasiya müalicəsi tətbiq olunan xərçəngli xəstələrin bədənində yaranan yara və xoraların müalicəsində müvəffəqiyyətlə istifadə edilməkdədir.5

Həmçinin balın daha əvvəl ifadə etdiyimiz anti-mikrob təsirindən ötrü, bal infeksiya meydana gəlməsini önləyən qoruyucu maneə meydana gətirər. Mövcud infeksiyanı da yaralardan sürətlə təmizləyər. Bakteriyaların antibiotik müqavimətli xüsusiyyətlərinə qarşı belə təsirlidir. Antiseptiklərin və antibiotiklərin tərsinə, yaradakı toxumaların üzərində mənfi təsirlər meydana gəlməz.6

Bu məlumatlardan da aydın olacağı kimi bal, "şəfa" yönü son dərəcə güclü qidadır. Şübhəsiz bu da, sonsuz qüdrət sahibi Allahın endirmiş olduğu

Quranın möcüzələrindən biridir. Aşağıdakı cədvəldə balın qida dəyəri baxımından araşdırması görülməkdədir:

| Qidalanma dəyərləri | 1 porsiyadakı orta miqdar | 100 gr.-dakı orta miqdar |
|---|---|---|
| Su | 3,6 gr | 17,1 gr |
| Cəmi karbohidratlar | 17,3 gr | 82,4 gr |
| Fruktoza | 8,1 gr | 38,5 gr |
| Qlükoza | 6,5 gr | 31,0 gr |
| Maltoza | 1,5 gr | 7,2 gr |
| Saxaroza | 0,3 gr | 1,5 gr |
| Qidalanma məzmunu | | |
| Cəmi kalori (kilokalori) | 64 | 304 |
| Cəmi kalori (kilokalori) (Yağ olaraq) | 0 | 0 |
| Cəmi yağ | 0 | 0 |
| Doymuş yağ | 0 | 0 |
| Xolesterol | 0 | 0 |
| Natrium | 0,6 mg | 2,85 mg |
| Cəmi karbohidrat | 17 gr | 81 gr |
| Şəkər | 16 gr | 76 gr |
| Diyet liflər | 0 | 0 |
| Protein | 0,15 mg | 0,7 mg |
| Vitaminlər | | |
| B1 (Tiamin) | < 0,002 mg | < 0,01 mg |
| B2 (Riboflavin) | < 0,06 mg | < 0,3 mg |
| Nikotinik turşusu | < 0,06 mg | < 0,3 mg |
| Pantothenik turşusu | < 0,05 mg | < 0,25 mg |
| B6 vitamini | < 0,005 mg | < 0,02 mg |
| Fol turşusu | < 0,002 mg | < 0,01 mg |
| C vitamini | 0,1 mg | < 0,5 mg |
| Minerallar | | |
| Kalsium | 1,0 mg | 4,8 mg |
| Dəmir | 0,05 mg | 0,25 mg |
| Sink | 0,03 mg | 0,15 mg |
| Kalium | 11,0 mg | 50,0 mg |
| Fosfor | 1,0 mg | 5,0 mg |

| | | |
|---|---|---|
| Maqnezium | 0,4 mg | 2,0 mg |
| Selenium | 0,002 mg | 0,01 mg |
| Mis | 0,01 mg | 0,05 mg |
| Xrom | 0,005 mg | 0,02 mg |
| Manqan | 0,03 mg | 0,15 mg |
| Mineral tozu | 0,04 mg | 0,2 gr |
| | | |

## Quranda diqqət çəkilən xurma və faydaları

Xurma Quranda bir çox ayədə bəhsi keçən, cənnət nemətləri arasında "bənzərsiz-xurma" (Rəhman surəsi, 68) ifadəsiylə xarakterizə edilən bir meyvədir. Allahın Quranda bildirdiyi bu meyvə araşdırıldığında, bir çox əhəmiyyətli xüsusiyyəti olduğu ortaya çıxmaqdadır. Bilinən ən qədim bitki növlərindən biri olan xurma, zəmanəmizdə ləzzəti ilə yanaşı bəsləyici xüsusiyyəti səbəbi ilə də seçilən bir qidadır. Hər keçən gün kəşf edilən faydaları xurmanı həm qida, həm də dərman olaraq istifadə edilən bir qida halına gətirmişdir. Xurmanın sahib olduğu bu xüsusiyyətlərə Məryəm surəsində diqqət çəkilmişdir.

> *Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!" Məryəmin aşağı tərəfindən onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun...*
>
> **(Məryəm surəsi, 23-26)**

Allahın hz. Məryəmə "xurma yeməsini" bildirməsinin bir çox hikməti vardır. Allahın hz. Məryəmin doğumunu asanlaşdırmaq üçün təqdim

etdiyi nemətlərdən biri olan xurmanın, xüsusilə hamilə və doğum edən qadınlar üçün əhəmiyyəti və faydaları, bu gün elmi olaraq da bilinməkdədir. Xurma 60-65% nisbət ilə ən çox şəkər ehtiva edən meyvələrdən biridir. Həkimlər hamilə qadınlara doğum sonrası meyvə şəkəri ehtiva edən yeməklər verilməsi lazım olduğunu ifadə etməkdədirlər. Bunun məqsədi ananın zəifləyən bədəninə enerji və canlılıq qazandırmaq, eyni zamanda da yeni doğan körpəyə lazımlı olan südün meydana gələ bilməsi üçün, süd hormonlarını hərəkətə keçirmək və ana südünü çoxaltmaqdır.

Həmçinin doğum əsnasında meydana gələn qan itkisi, qan şəkərinin düşməsinə səbəb olar. Xurma bədənə təkrar şəkər əmələ gəlməsinin təmin edilməsi baxımından əhəmiyyətlidir və təzyiqin düşməsinə də mane olar. Kalori dəyərinin çox yüksək olması səbəbiylə xəstəlikdən gücsüz düşmüş, ya da yorğun olan kəslər üçün xüsusilə çox faydalıdır.

Bu məlumatlar Allahın hz. Məryəmə, həm özünə enerji və canlılıq verəcək həm də körpənin tək qidası olan südün meydana gəlməsini təmin edəcək "xurma"dan yeməsini bildirməsindəki hikmətləri ortaya qoymaqdadır. Məsələn xurma, insan bədəninin sağlam və gümrah qala bilməsi üçün həyati əhəmiyyət daşıyan 10-dan çox element ehtiva etməkdədir. Bu səbəblə indiki vaxtda elm adamları, insanın yalnız xurma və suyla illərcə yaşaya biləcəyini ifadə etməkdədirlər.7 Bu mövzuda tanınmış mütəxəssislərdən biri olan V. H. W. Dowson isə, bir xurma və bir stəkan südün insanın gündəlik qida ehtiyacını qarşılamağa kifayət olduğunu söyləməkdədir.8



Xurmada olan oksitosin maddəsi də, müasir tibdə doğumu asanlaşdırıcı dərman olaraq istifadə edilməkdədir. Oksitosin doğumu asanlaşdırıcı təsirinə görə bir çox ədəbiyyatda "rapid birth"

yəni “sürətli doğum” ifadəsiylə təyin olunmaqdadır. Doğum sonrasında isə ana südünü artırıcı təsiriylə bilinməkdədir.9 Oksitosin əsas olaraq beyində ifraz olunan, doğum sancılarını başladan bir hormondur. Doğumdan əvvəl bədənin bütün hazırlıqları bu hormon sayəsində başlayar. Hormonun təsiri, ana rəhmini meydana gətirən əzələlərdə və ana südünün ifraz olunmasını təmin edən əzələ quruluşundakı hüceyrələrdə görülər. Doğum əsnasında ana rəhminin təsirli olaraq sıxılması doğumun reallaşa bilməsi üçün son dərəcə əhəmiyyətlidir. Oksitosin də, rəhmi meydana gətirən əzələlərin çox güclü şəkildə sıxılmasını təmin edər. Həmçinin oksitosin, yeni doğulmuş olan körpənin bəslənməsi üçün ana südünün ifraz olunmasını başladar. Xurmanın tək başına bu xüsusiyyəti (oksitosin ehtiva etməsi) belə Quranın Allahın vəhyi olduğunun əhəmiyyətli bir dəlilidir. Xurmanın tibbi olaraq faydalarının təsbit edilməsi ancaq yaxın tarixlərdə mümkün olmuşdur. Halbuki Quranda təxminən 1400 il əvvəl Allahın hz. Məryəmə hamiləlik dövründə xurma ilə bəslənməsini vəhy etdiyi bildirilməkdədir.

Həmçinin xurmada insan bədəninə bol miqdarda hərəkət və istilik enerjisi qazandıran, bədəndə parçalanıb istifadə edilməsi asan olan bir şəkər növü var. Üstəlik bu şəkər qan şəkərini sürətlə yüksəldən qlükoza deyil, meyvə şəkəri fruktozadır. Xüsusilə şəkər xəstələrində qan şəkərinin sürətlə yüksəlməsi, bir çox orqanı mənfi olaraq təsir edər, ancaq ən çox ziyan görən orqan və sistemlər göz, böyrəklər, ürək-damar sistemi və sinir sistemidir. Gözdə görmə itkisinə səbəb olan xəstəliklər, infarkt, böyrək çatmazlığı kimi bir çox ciddi xəstəliyin ən əhəmiyyətli səbəblərindən biri qan şəkəri yüksəkliyidir.

Xurma tərkib olaraq çox müxtəlif vitamin və minerala malikdir. Lif, yağ və zülallar baxımından da çox zəngindir. Xurmada natrium, kalium, kalsium, maqnezium, dəmir, kükürd, fosfor və xlor da var. Xurma həmçinin A vitamini, betakaroten, B1, B2, B3 və B6 vitaminlərini də ehtiva

edər. Xurmada olan vitamin və mineralların, normal insan bədənində və hamiləlik zamanlarındakı faydalarından bəzilərini isə belə sıralaya bilərik:

Xurmanın bəsləyici nisbətinin gücü, ehtiva etdiyi uyğun mineral tarazlığından qaynaqlanmaqdadır. Xurmada, hamiləlikdə qadınların alması lazım olan bir B vitamini olan fol turşusu da var. Fol turşusu (B9), bədəndə yeni qan hüceyrəsi istehsalında, bədənin təməl daşı olan amin turşularının istehsalında və hüceyrələrin yenilənməsində əhəmiyyətli vəzifələr boynuna götürən bir vitamindir. Buna görə hamiləlikdə fol turşusu ehtiyacı diqqətə çarpan şəkildə artar və gündəlik ehtiyac iki qatına çıxar. Fol turşusu səviyyəsi qeyri-kafi olduğunda quruluş olaraq normaldan böyük, ancaq funksiyaları aşağı qırmızı qan hüceyrələri meydana gəlir və qansızlıq əlamətləri ortaya çıxar. Xüsusilə hüceyrə bölünməsində və hüceyrənin genetik quruluşunun meydana gəlməsində əhəmiyyətli rol oynayan fol turşusu, hamiləlik əsnasında ehtiyacı iki qatına çıxan tək maddədir. Xurma da, fol turşusu baxımından çox zəngin bir qida növüdür.

Digər tərəfdən, hamiləlik zamanı yaranan uzunmüddətli ürək bulanması və fizioloji reaksiyalar nəticəsində kalium azlığı müşahidə olunur. Belə vəziyyətdə qadına əlavə kalium verilməlidir. Xurmada bol miqdarda olan kalium bu baxımdan böyük əhəmiyyət daşıdığı kimi, bədəndəki su tarazlığının qorunmasında da son dərəcə təsirlidir. Həmçinin kalium, beyinə oksigen getməsinə də kömək edərək aydın düşünə bilməyi təmin edər. Bununla birlikdə bədən mayeləri üçün uyğun qələvi xüsusiyyəti təmin edər. Zəhərli bədən tullantılarını çölə atması üçün böyrəkləri xəbərdar edər. Yüksək qan təzyiqini salmağa kömək edər və sağlam dəri meydana gəlməsini təmin edər.

Xurmanın ehtiva etdiyi dəmir, qırmızı qan hüceyrələrində olan hemoqlobin sintezini nəzarət edər və bu da hamiləlikdə qansızlığın maneə törədilməsinə və körpənin inkişafı üçün həyati əhəmiyyət daşıyan qandakı qırmızı qan hüceyrələri tarazlığının uyğun hala gəlməsini təmin edər. Bilindiyi kimi qırmızı qan hüceyrələri qanda oksigen və karbon 4 oksidi daşıyaraq hüceyrələrin canlılığını davam etdirməsində rol oynayarlar. Çox dəmir ehtiva etməsi səbəbiylə, bir insan gündə 15 ədəd xurma yeyərək bədəninin dəmir ehtiyacını qarşılaya bilər və dəmir əskikliyindən qaynaqlanan narahatlıqlardan qorunmuş olar.

Xurmada olan kalsium və fosfat isə, skelet meydana gəlməsi və bədənin sümük quruluşunun tarazlığı üçün çox əhəmiyyətli elementlərdir. Xurma tərkibindəki bol fosfor və kalsiumla sümük zəifliyindən qoruyur və bu xəstəliklərin azalmasına kömək edir.

Elm adamları xurmanın stress və gərginliyi aradan qaldırıcı təsirinə də diqqət çəkməkdədirlər. Berkeley Universiteti mütəxəssislərinin etdiyi araşdırmalar, sinirləri gücləndirən B6 vitamininin və əzələlərin işində əhəmiyyətli rol oynayan maqnezium mineralının xurmada yüksək miqdarda olduğunu ortaya qoymuşdur. Xurma həmçinin ehtiva etdiyi maqnezium ilə, böyrəklər üçün də son dərəcə əhəmiyyətlidir. Bir insan gündə 2-3 ədəd xurma yeyərək bədəninin maqnezium ehtiyacını qarşılaya bilər.10

Ehtiva etdiyi B1 vitamini ilə sinir sisteminin sağlam olmasını asanlaşdırar. Bədəndəki karbohidratların enerjiyə çevrilməsinə, zülal və yağların bədənin digər ehtiyacları üçün istifadə edilməsinə köməkçi olar. B2 vitamini ilə də, bədənin enerji təminatı və hüceyrələrin yenilənməsi üçün zülal, karbohidrat və yağların yandırılmasına köməkçi olar.

Hamiləlikdə A vitamininə olan ehtiyac da artar. Xurma, içindəki A vitamini sayəsində, görmə gücünü və bədən müqavimətini artırar, sümük

və dişlərin güclənməsini təmin edər. Xurma, betakaroten baxımından da son dərəcə zəngindir.11 Betakaroten hüceyrələrə hücum edən molekulları nəzarətdə saxlayaraq, xərçəngin qarşısını alan xüsusiyyətə malikdir.

Başqa meyvələr protein baxımından ümumiyyətlə zəngin deyil. Ancaq xurmanın tərkibində protein də var.12 Bu xüsusiyyəti sayəsində bədənin xəstəliklərə və infeksiyalara qarşı qorunmasını təmin edər, hüceyrələri yeniləyər və bədən mayesini tarazlayar. Məsələn, ət də faydalı qidadır, ancaq xüsusilə belə bir dövrdə təzə xurma qədər fayda verməyə bilər. Hətta belə bir dövrdə ətdən çox istifadə edilməsi bədəndə zəhərlənməyə səbəb ola bilər. Həzmi asan olan, yüngül tərəvəz və meyvə növü yeməklərin seçimi daha uyğundur.

Xurma ilə əlaqədar bütün bu məlumatlar, Allahın sonsuz elmini və insanlara olan rəhmətini ortaya qoymaqdadır. Görüldüyü kimi müasir tibbin ancaq indiki vaxtda təsbit edə bildiyi xurmanın (xüsusilə də hamiləlik dövründəki) faydalarına Quranda 14 əsr əvvəl işarə edilmişdir.







**Taze İncirin Besin Değeri (100 gr)**

| | |
|---|---|
| Kalori (kcal) | 74 |
| Lif (g) | 3 |
| Yağ (g) | 0 |
| Protein (g) | 1 |
| Şeker (g) | 16 |
| Vitamin A (IU) | 142 |
| Vitamin C (mg) | 2 |
| Vitamin B1 | 0.1 |
| Vitamin B2 | 0.1 |
| Vitamin B6 | 0.1 |
| Sodyum | 1 |
| Potasyum | 232 |
| Kalsiyum | 35 |
| Fosfor | 232 |
| Magnezyum | 17 |
| Demir | 0.4 |
| Manganez | 0.1 |
| Bakır | 0.1 |
| Selenvum | 0.2 |
| Çinko | 0.2 |

**Kuru İncirin Besin Değeri (100 gr)**

| | |
|---|---|
| Kalori (kcal) | 249 |
| Lif (g) | 10 |
| Yağ (g) | 1 |
| Protein (g) | 3 |
| Şeker (g) | 48 |
| Vitamin A (IU) | 10 |
| Vitamin C (mg) | 1.2 |
| Vitamin B1 | 0.1 |
| Vitamin B2 | 0.1 |
| Vitamin B6 | 0.1 |
| Sodyum | 10 |
| Potasyum | 680 |
| Kalsiyum | 162 |
| Fosfor | 67 |
| Magnezyum | 68 |
| Demir | 3.07 |
| Manganez | 0.8 |
| Bakır | 0.3 |
| Selenyum | 0.6 |
| Çinko | 0.5 |

100 qram təzə əncirdəki qidalanma dəyərlərini göstərən cədvəl



## Donuz əti və sağlamlığa zərərləri

*O sizə ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir. Hər kəs harama meyl etmədən və həddi aşmadan bunlardan yeməyə məcbur olarsa, bu ona günah hesab edilməz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.*

**(Bəqərə surəsi, 173)**



Şəkildə "trişin" paraziti görülməkdədir.

Donuz əti yeyilməsinin sağlamlığa zərərli bir çox tərəfi var. Bu zərərlər keçmiş dövrlərdə olduğu kimi, alınan hər cür tədbirə baxmayaraq indiki vaxtda da keçərlidir. Hər şeydən əvvəl donuz, hər nə qədər fermalarda, baxımlı mühitlərdə yetişdirilsə də, öz nəcisini yeyən bir heyvandır. Gərək nəcislə bəslənməsi, gərəksə bioloji quruluşu səbəbiylə donuzun bünyəsi digər heyvanlara nisbətlə çox miqdarda anticisim yaradır. Yenə donuzun bədənində digər heyvanlara və insana nisbətlə çox yüksək dozada böyümə hormonu ifraz olunar. Təbii olaraq bu yüksək dozadakı anticisimlər və böyümə hormonu, qan dövranı yoluyla donuzun əzələ toxumasına da keçərək yığılar. Bununla yanaşı donuz əti çox yüksək nisbətlərdə xolesterol və lipid ehtiva edər. Bunların nəticəsində bütün bu həddindən artıq səviyyədəki anticisimlər, hormonlar, xolesterol və lipidlərlə yüklü olan donuz ətinin insan sağlamlığı baxımından əhəmiyyətli təhdid olduğu elmi olaraq sübut edilmişdir.

Bu gün donuz ətinin çox istehlak edildiyi ABŞ, Almaniya kimi ölkələrin əhalisinin əhəmiyyətli bir hissəsini meydana gətirən normadan çox kök insanların varlığı, artıq alışılmış bir vəziyyət olmuşdur. Donuz ətinə

söykənən bir bəslənmə nəticəsində, həddindən artıq böyümə hormonuna məruz qalan insan bünyəsi, əvvəl çox çəki yığmaqda, sonra da bədən deformasiya (şəkil pozuqluqlarına) uğramaqdadır.

Bunlardan başqa donuz ətindəki sağlamlığa zərərli maddələrdən biri də "Trixinella" parazitidir. İnsan bədəninə girdiyində birbaşa ürək əzələlərinə yerləşərək ölümcül təhlükə meydana gətirən trixinella parazitinə donuz ətində tez-tez rast gəlinməkdədir. Dövrümüzün texnologiyası ilə donuzlarda trixinella parazitinin var olmasını texniki olaraq təsbit etmək mümkündürsə də əvvəlki əsrlərdə belə bir üsul bilinmirdi. Bu səbəblə, donuz əti yeyən hər kəs üçün trixinella parazitinə yoluxma və ölümlə qarşı-qarşıya qalma riski vardı.

Görüldüyü kimi bütün bu səbəblər, Rəbbimizin donuz ətini qadağan edilməsinin hikmətlərindən bir hissəsidir. Həmçinin Rəbbimizin bu əmri, hər şərtdə sağlamlığa zərərli təsirlərini davam etdirən, yoxlanılmadan istehsalında isə ölümcül ola biləcək donuz ətinin yeyilməsinə qarşı tam bir qorumadır.

20-ci əsrə qədər donuz ətinin insan sağlamlığını birbaşa təhdid edən zərərləri olduğundan xəbərdar olmaq mümkün deyildi. Bugünkü tibbi cihazlarla, bioloji testlərlə konkret şəkildə ortaya qoyulmuş bu zərərə qarşı, hələ heç kimin mikrob, bakteriya, trixinella, hormon, anticisim kimi anlayışlardan xəbərinin olmadığı 7-ci əsrdə endirilən Quranda qəti tədbir alınması da, Quranın üstün elm sahibi Rəbbimizin vəhyi olduğunu göstərən möcüzələrindəndir. Bu gün də donuz istehsalında alınan hər cür tədbir və yoxlamaya baxmayaraq, donuz ətinin fizioloji olaraq insan bədəninə uyğun bir qida növü olmadığı, insan sağlamlığına qəti olaraq zərəri olan bir ət növü olduğu həqiqəti dəyişməmişdir.













## Qarışqaların ünsiyyəti

Quranda hz. Süleymanın ordularından bəhs edilərkən, qarışqaların arasında bir “xəbərləşmə sistemi” olduğuna işarə edilməkdədir:



> *Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər".*
>
> **(Nəml surəsi, 18)**

20-ci əsrdə qarışqalar üzərində aparılan elmi araşdırmalar, bu kiçik heyvanların çox mütəşəkkil ictimai həyatları olduğunu və bu təşkilatın gərəyi olaraq aralarında çox kompleks ünsiyyət şəbəkəsinin var olduğunu ortaya qoymuşdur. "National Geographic" jurnalında nəşr olunan bir məqalədə bu mövzudan belə bəhs edilməkdədir:

Böyük və ya kiçik hər hansı bir qarışqa, başındakı kompleks duyğu orqanlarıyla, milyonlarla hətta daha çox kimyəvi və vizual siqnalları tutar. Beyin 500.000 sinir hüceyrəsi ehtiva edər; gözlər birləşmişdir; antenalar insandakı burun və barmaq ucu kimi hərəkət edər. Ağzın altındakı proyeksiyalar dadı qəbul edər, tüklər toxunmağa qarşılıq verər.13

Biz fərqinə varmasaq da qarışqalar, həssas duyğu orqanları sayəsində olduqca fərqli ünsiyyət üsulları istifadə edərlər. Ovlarını tapmaqdan bir-birlərini izləməyə, yuvalarını qurmaqdan döyüşməyə qədər həyatlarının hər anında bu duyğu orqanlarından faydalanarlar. 2-3 millimetrlik bədənlərinin içinə sığdırılmış 500.000 sinir hüceyrəsi ilə, insanları heyrətə salacaq ünsiyyət sisteminə sahibdirlər.

Bu heyvanların ünsiyyətlərindəki reaksiyaları müəyyən kateqoriyalara ayrılmışdır: Həyəcan vermə, toplanma, qida yerini xəbər vermə, təmizlənmə, maye qida dəyişməsi, qruplaşma, tanıma, sinif təyin etmə...14

Bu reaksiyalarla nizamlı bir cəmiyyət quruluşu meydana gətirən qarışqaların, qarşılıqlı informasiya mübadiləsinə əsaslanan həyatları vardır. Qarışqalar məlumat ötürməklə, bəzən insanların danışaraq həll edə bilmədiyi mövzularda (toplanma, paylaşma, təmizləmə, müdafiə etmə və s.) daha qüsursuz ünsiyyət sərgiləyərlər.

Qarışqalar daha çox kimyəvi səviyyədə bir ünsiyyət reallaşdırarlar. Qarışqaların ünsiyyət qurmaq məqsədi ilə istifadə etdikləri kimyəvi maddələr, yarı-kimyəvi maddələr (semiochemicals) olaraq bilinən feromonlardır. Qoxu hesab edilən və daxili ifrazat vəzilərində ifraz olunan bir maye olan feromonlar, qarışqa qruplarında ən əhəmiyyətli rolu oynayar. Bir qarışqa siqnal olaraq bu mayeni ifraz etdiyində, digərləri qoxu və ya dad alma yoluyla mesajı alar və cavab verərlər. Qarışqa feromonları üzərində aparılan araşdırmalar, bütün siqnalların koloniyanın ehtiyaclarına görə ifraz olunduğunu ortaya çıxarmışdır. Həmçinin qarışqaların ifraz etdiyi feromonun sıxlığı, içində olduqları vəziyyətin vacibliyinə görə də dəyişməkdədir.15

Görüldüyü kimi, qarışqaların apardığı əməliyyatları yerinə yetirə bilmək üçün, əhatəli kimya məlumatına ehtiyac vardır. 14 əsr əvvəl, qarışqalar haqqında bu cür ətraflı məlumat sahibi olunmadığı bir dövrdə, qarışqaların ünsiyyətinə diqqət çəkilməsi Quranın elmi möcüzələrindən biridir. (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, Qarışqa möcüzəsi)




1. Ölü bitki və heyvanlar 2. Ağac kökləri tərəfindən udulan minerallar

## Yuxuda qulaqların aktiv olması

> *Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik)*
>
> **(Kəhf surəsi, 11)**

Yuxarıdakı ayədə bəhs edilən “qulaqlarını illərlə qapalı saxladıq” ifadəsinin ərəb dilində mənası “darabe” felidir. Ərəb dilində bu feil, məcazi olaraq “onları yatırtdıq” mənasını daşımaqdadır. Həmçinin “darabe” sözü qulaqla birlikdə istifadə edildiyində “qulağın eşitməsinə maneə törədilməsi” mənası da daşımaqdadır. Ayədə yuxu ilə əlaqədar yalnız eşitmə duyğusuna diqqət çəkilməsi isə əslində çox əhəmiyyətli bir məlumat ehtiva etməkdədir.

Elm adamlarının kəşflərinə görə qulaq, insan yatarkən aktiv olan tək duyğu orqanıdır. Oyanmaq üçün saatın siqnalına ehtiyac duymamızın səbəbi də budur.16 Allahın Kəhf Əhli ilə əlaqədar olaraq istifadə etdiyi “qulaqlarına vurduq” ifadəsinin hikməti də, həmin gənclərin eşitmə hissiyyatlarının bağlanıldığına və buna görə uzun illər oyanmadan yuxuda qaldıqlarına işarə olması ola bilər.



## Yuxuda hərəkət etmənin əhəmiyyəti

*Onlar yatmış ikən sən onları oyaq hesab edərdin. Biz onları sağa-sola çevirirdik. Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb yatmışdı. Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi.*

**(Kəhf surəsi, 18)**

Yuxarıdakı ayədə yüzlərlə il yuxuda qaldıqları bildirilən Kəhf Əhlindən bəhs edilməkdədir. Həmçinin Allah ayədə bu kəslərin bədənlərini sağ və sol yanlara çevirdiyini bildirməkdədir. Bunun hikməti isə çox yaxın bir tarixdə kəşf edilmişdir.

Uzun müddət eyni yatış mövqeyində qalan insanlar ciddi sağlamlıq problemləri ilə qarşılaşarlar: Qan dövranında ağırlaşmalar meydana gəlməsi, dəridə yaraların meydana gəlməsi, yatılan yerə təmas edən bölgələrdə qanın laxtalanması kimi.17

Uzun müddət eyni mövqedə yatıldığında meydana gələn yataq yaralarına "təzyiq yaraları" da deyilir. Çünki çox uzun müddət eyni mövqedə yatıldığında, bədənin müəyyən bir bölgəsinə tətbiq olunan davamlı təzyiq, qan damarlarının sıxışıb bağlanmasına səbəb ola bilər. Bunun nəticəsi olaraq qan yoluyla daşınan oksigen və digər qidalar dəriyə çata bilməz və dəri ölməyə başlayar. Bu vəziyyət bədəndə yaraların meydana gəlməsinə səbəb olar. Əgər bu yaralar müalicə edilməzsə dərinin qatları, yağ və əzələ toxumaları da ölə bilər.18

Dərinin ya da toxumanın altında yaranan bu yaralar, müalicə edilməzlərsə ya da infeksiyalaşarsa ciddi ölçülərə çata bilər, hətta həyati

təhlükəyə səbəb ola bilərlər. Bu səbəblə dəri üzərindəki təzyiqi azaltmaq üçün hər 15 dəqiqədə bir mövqe dəyişdirmək lazımdır. Öz-özünə hərəkət edə bilməyən iflic xəstələri də bu səbəblə xüsusi baxıma möhtacdırlar və hər 2 saatda bir başqasının köməyiylə hərəkət etdirilərlər.19 Yuxarıdakı ayədə əsrimizdə kəşf edilən bu tibbi məlumatlara diqqət çəkilməsi, şübhəsiz Quranın ayrı bir möcüzəsidir.





İKİNCİ HİSSƏ

# Quranın gələcəklə əlaqədar xəbərləri

## Giriş

Quranın möcüzəvi yönündən biri də, ayələrində gələcəkdə reallaşacaq olan bəzi hadisələrin əvvəldən xəbər verilmiş olmasıdır. Gələcəklə əlaqədar xəbər verilən bu hadisələrin zaman ərzində reallaşması, Quranın üstün elm sahibi olan Allahın sözü olduğunu sübut edən dəlillərdəndir.

İrəliləyən səhifələrdə Quranda gələcəyə istiqamətli verilən xəbərlərdən, reallaşmış olanların bəzilərinə geniş şəkildə yer veriləcək.




Qüds, Ölü dəniz, Aralıq dənizi, Tel-Əviv

## Bizansın qalibiyyəti

Quranda gələcək haqqında verilən xəbərlərdən biri, Rum surəsinin əvvəlindəki ayələrdə yer alar. Bu ayələrdə Bizans İmperatorluğunun məğlubiyyətə uğradığı, amma çox qısa bir zamandan sonra təkrar qalib gələcəyi bildirilmişdir:

*Əlif. Ləm. Mim. Rumlular məğlub edildilər; ən aşağı (və ya ən yaxın) bir yerdə. Lakin onlar öz məğlubiyyətlərindən sonra qələbə çalacaqlar; bir neçə il ərzində. Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər.*

**(Rum surəsi, 1-4)**



Solda, Ölü dənizin peykdən çəkilmiş fotoşəkilləri görülməkdədir. Ölü dənizin dərinliyi ancaq müasir dövrdəki ölçülərlə təsbit edilə bilmişdir. Bu təsbitlər istiqamətində də "yer üzünün ən alçaq yeri"nin bu bölgə olduğu ortaya çıxmışdır.

Bu ayələr, Xristian olan bizanslıların, 613-614 illərində farslar qarşısında çox ağır məğlubiyyətə uğramasından təxminən 7 il sonra, 620-ci ildə endirilmişdi. Ayələrdə Bizansın çox yaxında qalib gələcəyi xəbər verilirdi. Halbuki o sırada Bizans o qədər böyük itkilərə uğramışdı ki, nə təkrar qalib gəlməsi, nə də həyatda qalması belə mümkün görünmürdü. Farslar bizanslıları 613-cü ildə Antakyada məğlubiyyətə uğradaraq; qalibiyyətlərini Şam, Kilikya, Tarsus və Qüdsü ələ keçirmələriylə davam etdirmişdi. Xüsusilə 614-cü ildə Qüdsün itirilməsi, Müqəddəs Məzar kilsəsinin təxrib edilməsi və Xristianlığın simvolu "Həqiqi xaç"ın farslar tərəfindən ələ keçirilməsi, bizanslılar üçün ağır zərbə olmuşdu.20

O dövrdə tək farslar deyil, avarlar, slavyanlar və lombardlar (qədim alman tayfaları) da Bizans dövlətinə qarşı böyük təhdid meydana gətirirdi. Avarlar İstanbul yaxınlığına qədər gəlmişdi. Bizans Kralı Herakl, ordunun xərclərini qarşılaya bilmək üçün kilsələrdəki qızıl və gümüş bəzək əşyalarının əridilib pula çevrilməsini əmr etmişdi. Hətta bunlar da çatmayınca bürüncdən heykəllər belə pul istehsalı üçün əridilməyə başlanmışdı. Bir çox qubernator, Kral Herakla üsyan etmiş, İmperatorluq parçalanma nöqtəsinə gəlmişdi. Əvvəldən Bizans torpağı olan

Mesopotamiya, Kilikya, Suriya, Fələstin və Misir bütpərəst farsların işğalı altına girmişdi.21

Qısacası, hər kəs Bizansın yox olmasını gözləyirdi. Amma tam bu dövrdə, Rum surəsinin ilk ayələri vəhy edildi və Bizansın doqquz il keçmədən yenidən qalib gələcəyi xəbər verildi. Bu qalibiyyət elə qeyri-mümkün görünürdü ki, Ərəb müşrikləri Quranda xəbər verilən bu zəfərin, əsla reallaşmayacağını düşünürdülər.

Lakin Quranın bütün xəbərləri kimi bu da heç şübhəsiz həqiqət idi. 622-ci ildə Herakl Ermənistanı işğal edib farsları məğlub edərək müxtəlif zəfərlər qazandı.22 627-ci ilin dekabr ayında, Bizans və Fars İmperatorluqları arasında, Bağdad yaxınında Dəclə çayının 50 km şərqində olan Ninova xarabaları yaxınında böyük müharibə daha oldu. Bizans ordusu, farsları burada da məğlubiyyətə uğratdı. Bir neçə ay sonra da farslar işğal etdikləri yerləri Bizansa geri verən bir razılaşma imzalamaq məcburiyyətində qaldılar.23

Rumların qalibiyyəti 630-cu ildə İmperator Heraklın Fars hökmdarı II Xosrovu məğlubiyyətə uğradaraq, Qüdsü geri alması və Xristianlığın simvolu "Həqiqi xaç"ı Müqəddəs Məzar kilsəsinə qazandırmasıyla tamamlanmış oldu.24


Bizanslıların farslara məğlub olduğu döyüşün reallaşdığı Ölü dəniz hövzəsi. Yuxarıda bu bölgənin peykdən çəkilmiş şəkli görülməkdədir. Dünyanın ən alçaq bölgəsi olan Ölü dəniz ətrafı dəniz səviyyəsindən 395 metr aşağıdadır.

Beləcə Allahın Quranda bildirdiyi "Rumun zəfəri", ayədəki "üç ilə doqquz il içində" ifadəsiylə diqqət çəkilən zaman aralığında, möcüzəvi bir şəkildə reallaşmış oldu.

Bu ayələrdə bəhs edilən bir başqa möcüzə də, o dövrdə kimsənin təsbit etməsinin mümkün olmadığı coğrafi bir həqiqətin xəbər verilməsidir. Rum surəsinin 3-cü ayəsində, rumların "Dünyanın

ən alçaq yerində" məğlub olduqları ifadə edilər. Ərəb dilində "edna el-ard" olan bu ifadə, bəzi tərcümələrdə "yaxın bir yer" olaraq da tərcümə edilər. Ancaq bu tərcümə, orijinal ifadənin tam qarşılığı deyil, məcazi bir şərhidir. "Edna" sözü ərəb dilində "alçaq" demək olan "deni" sözündən törəmişdir və "ən alçaq" mənasını verər. "Ard" isə yer üzü deməkdir. Bu səbəbdən "edna el-ard" ifadəsi də "yer üzünün ən alçaq yeri" mənasını verməkdədir.



Bəzi təfsirçilər bəhs edilən bölgənin ərəblərə yaxınlığını göz qarşısında saxlayaraq sözün "ən yaxın" mənasını seçməkdədirlər. Ancaq sözün əsl mənası, Quranın endirildiyi dövrdə bilinməsi mümkün olmayan çox əhəmiyyətli bir geoloji həqiqətə işarə etməkdədir. Çünki Dünyanın ən alçaq yerini araşdırdığımızda, bu nöqtənin bizanslıların, 613-614-cü illərdə məğlubiyyətə uğradığı yerlərdən biri olan Ölü dəniz (Dead Sea) hövzəsi olduğunu görərik.25

Bu məğlubiyyətin ən ağır zərbəsi, daha əvvəl də ifadə etdiyimiz kimi, Ölü dəniz yaxınlarında Qüdsdəki məğlubiyyət ilə birlikdə Xristianlığın simvolu "Həqiqi xaç"ın itirilməsidir.

Bizans İmperatorluğu ilə farslar arasındakı döyüşün reallaşdığı bəhs edilən yerlər, Suriya, Fələstin və indiki İordaniya torpaqlarının kəsişdiyi bölgədə yerləşən Ölü dəniz hövzəsidir. Ölü dəniz ətrafı isə dəniz səviyyəsindən 399 metr aşağıda yerləşib, yer üzünün "ən alçaq" bölgəsidir.

Burada diqqət yetiriləcək nöqtə, Ölü dənizin dərinliyinin yalnız müasir çağdakı ölçülərlə təsbit edilmiş olmasıdır. Daha əvvəl heç kimin Ölü dənizin dünyanın ən alçaq bölgəsi olduğunu bilməsi mümkün deyil. Amma bu bölgə Quranda "yer üzünün ən alçaq yeri" adlandırılmışdır. Bu

məlumat, Quranın Allahın sözü olduğunun bir başqa dəlilini meydana gətirməkdədir.

## Fironun cəsədinin qorunması

İrəliləyən hissələrdə daha ətraflı toxunacağımız kimi, Firon özünü ilah olaraq qəbul etməkdə və hz. Musanın Allaha iman etməsi üçün etdiyi dəvətlərə qarşı böhtan və təhdidlə cavab verməkdədir. Firon bu qürurlu rəftarını ancaq, ölüm təhlükəsi ilə qarşılaşıb suların altında qalacağını anlayana qədər davam etdirmişdir. Quranda Fironun, Allahın əzabı ilə qarşılaşdığında dərhal imana yönəldiyi bu ayədə bildirilər:



*Biz İsrail oğullarını dənizdən keçirtdik. Firon və onun qoşunu zülm və düşmənçilik məqsədilə onları təqib etdilər. Nəhayət Firon dənizdə batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!*

**(Yunis surəsi, 90)**

Ancaq Allah Fironun belə bir anda iman etməsini qəbul etməmişdir. Allah Fironun bu səmimiyyətsiz rəftarını Quranda bu ayələrlə bildirər:

> *Firona deyildi: "İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun. Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan". Həqiqətən də, insanların çoxu ayələrimizdən xəbərsizdir.*
>
> **(Yunis surəsi, 91-92)**

Bu ayələrdə Firona aid cəsədin gələcək nəsillərə ibrət olacağının bildirilməsi, cəsədin "pozulmamış" olacağına bir işarə olaraq qəbul edilə bilər. Quranda 1400 il əvvəldən xəbər verildiyi kimi, hələ də tarixi bir fakt olaraq saxlanılan bir cəsəd Qahirədəki Misir muzeyinin Krallıq Mumiyaları otağında sərgilənməkdədir. Böyük bir ehtimalla, sulara qərq olub boğulduqdan sonra, Fironun cəsədi sahilə çıxmış və misirlilər tərəfindən tapılaraq əvvəldən düzəldilmiş olan məzarına aparılmışdır.26

## Məkkənin fəthi

> *Allah Öz Elçisinin həqiqət kimi gördüyü yuxusunu gerçəyə çevirdi. Allah qoysa, siz əmin-amanlıqla, başlarınızı qırxdırmış, bəziləriniz də saçlarını qısaltmış halda və qorxmadan Məscidul-Hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan qabaq (Məkkəyə girməzdən əvvəl sizə) yaxın bir qələbə də bəxş edəcəkdir.*
>
> **(Fəth surəsi, 27)**

Peyğəmbərimiz (s.ə.v), Mədinədə ikən gördüyü bir yuxusunda, möminlərin güvən içində Məscidi Harama girdiklərini və Kəbəni təvaf etdiklərini görmüş və möminləri bu xəbərlə müjdələmişdi. Çünki,

Məkkədən Mədinəyə hicrət edən möminlər, o zamandan bəri Məkkəyə gedə bilmirdilər.

Allah Peyğəmbərimiz (s.ə.v)-ə Qatından bir kömək və dəstək olaraq Fəth surəsinin 27-ci ayəsini vəhy etmiş və yuxusunun doğru olduğunu əgər Allah diləsə möminlərin Məkkəyə girə biləcəklərini bildirmişdir. Həqiqətən də, bir müddət sonra, əvvəl Hudeybiyə Sülhü və ardından gələn Məkkənin fəthi ilə, müsəlmanlar eyni ayədə bildirildiyi kimi güvən içində Məscidi Harama girmişlər. Beləcə Allah, Peyğəmbərimizin əvvəldən xəbər verdiyi müjdənin həqiqət olduğunu göstərmişdir.



Ancaq burada diqqət yetirilməsi lazım olan əhəmiyyətli bir nöqtə vardır. Fəth surəsinin 27-ci ayəsinə diqqət yetirilsə, Məkkənin fəthindən əvvəl reallaşacaq bir başqa fəthdən daha danışıldığı görüləcək. Lakin ayədə xəbər verildiyi kimi müsəlmanlar, əvvəl yəhudilərin əlində olan Heybər qalasını fəth etmişlər, daha sonra da Məkkəyə girmişlər.

Məkkənin fəthinin müjdələnildiyi digər ayələrdən bəziləri isə belədir:

> *Sizi onların üzərində qələbə çalmağa müvəffəq etdikdən sonra, Məkkə vadisində onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən Odur. Allah sizin nə etdiklərinizi Görəndir.*
>
> **(Fəth surəsi, 24)**

> *Həqiqətən, Biz sənə aydın bir qələbə verdik ki, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni düz yola yönəltsin və Allah sənə böyük bir qələbə ilə kömək etsin.*
>
> (Fəth surəsi, 1-3)

İsra surəsinin 76-cı ayəsində isə, inkarçıların da Məkkədə qala bilməyəcəkləri belə bildirilmişdir:

**Müşriklər az qala səni bu torpaqdan sıxışdırıb çıxaracaqdılar. Lakin səni qovduqdan sonra özləri də orada ancaq az bir müddət qala bilərdilər. (İsra surəsi, 76)**

Peyğəmbərimiz (s.ə.v) hicrətin 8-ci ilində Məkkəyə girərək bu şəhəri fəth etmişdir. İki il sonra da, Allahın Quranda bildirdiyi kimi inkarçılar Məkkədən çıxmışlar. Burada əhəmiyyətli olan bir başqa nöqtə isə budur: Peyğəmbərimiz (s.ə.v) möminlərə bu müjdələri verdiyində, mövcud vəziyyət heç də bu istiqamətdə deyildi. Hətta, şərtlər tam əksini göstərməkdə, müşriklər möminləri qəti olaraq Məkkəyə soxmamaqda qərarlı görünməkdəydilər. Bu isə, qəlbində xəstəlik olanların, Peyğəmbərimiz (s.ə.v)-in söylədiklərinə şübhə ilə baxmalarına səbəb olmuşdur. Ancaq Peyğəmbərimiz (s.ə.v) Allaha güvənərək, insanların nə deyəcəklərini heç əhəmiyyət vermədən, Allahın ona bildirdiyinə iman etmiş və bunu insanlara açıqlamışdır. Söylədiklərinin yaxın bir gələcəkdə reallaşması da Quranın əhəmiyyətli möcüzəsidir.















Duftspezialisten firmasının istehsal etdiyi cihaz, evlərdə istifadə olunan kompüterlərin şəxslərin istəyinə görə qoxu yaymasını təmin edir.

## Elektrik istifadəsi

> *...Biz onun üçün mis qaynağını sel kimi axıtdıq...*
>
> **(Səba surəsi, 12)**

Allahın hz. Süleymanın əmrinə verdiyi böyük nemətlərdən biri "ərimiş mis mədəni"dir. Bu ayəni fərqli şəkillərdə şərh etmək mümkündür.

Ərimiş misin istifadə edilməsi ilə, hz. Süleyman dövründə elektrik istifadə edilən yüksək bir texnologiyanın varlığına da işarə edilmiş ola bilər. Bilindiyi kimi mis elektriki və istiliyi ən yaxşı keçirən metallardan biridir və bu istiqamətiylə elektrik sənayesinin təməlini meydana gətirməkdədir. Dünyada çıxarılan misin əhəmiyyətli bir hissəsi elektrik sənayesində istifadə edilməkdədir.

Ayədə bəhs edilən "sel kimi axıtdıq" ifadəsi də elektrikin çox geniş sahələrdə istifadə edilə biləcəyinə işarə edilmiş ola bilər (doğrusunu

Allah bilir).






1. Su səviyyəsi 2. Keçirici qat 3. Artezyen quyusu 4. Keçirməyən qayalar



## Texnologiyada qarışqa ordusu

*Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və onun qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər".*

**(Nəml surəsi, 18)**

Yuxarıdakı ayədə "Qarışqa vadisi" deyilən xüsusi bir yerə və xüsusi qarışqalara diqqət çəkilməkdədir. Hz. Süleymanın qarışqaların öz

aralarındakı danışıqlarını eşitməsində də, kompüter texnologiyasında yaşanacaq olan inkişaflara diqqət çəkən işarələr olmuş ola bilər. İndiki vaxtda “Silikon vadisi” termini texnologiya dünyasının mərkəzini ifadə etməkdədir. Hz. Süleyman hekayəsində də bir “qarışqa vadisi”ndən bəhs edilməsi son dərəcə mənalıdır. Allah bu ayə ilə gələcəkdə yaşanacaq inkişaf etmiş bir texnologiyaya diqqət çəkmiş ola bilər.

Həmçinin indiki vaxtda qarışqalar və bəzi böcək növləri yüksək texnologiya sahəsində sıx olaraq istifadə edilməkdədir. Bu canlılar nümunə götürülərək inkişaf etdirilən robot layihələri, müdafiə sənayesindən texnologiya sahəsinə qədər bir çox sahədə xidmət etməyi məqsəd qoymaqdadır. Ayədə bu inkişaflara da işarə edilir ola bilər.



## Mini texnologiyadakı son kəşf: Robot qarışqa ordusu

Qarışqalar nümunə götürülərək kəşf edilən layihələrin ən məşhuru, fərqli ölkələrdə bir-birindən müstəqil olaraq icra edilən “robot qarışqa ordusu layihələri”dir. Məsələn Virciniya Politexnik İnstitutu və Virciniya Universiteti (ABŞ) tərəfindən aparılan bir araşdırma kiçik, ucuz və sadə robotların yaradılması hədəfləməkdədir. Məqsəd, hamısı fiziki olaraq bir-birinin eynisi olan bu robotlardan bir robot ordusu meydana gətirməkdir. Layihə rəhbərləri bu robotların rahat olmalarının səbəbini bu şəkildə açıqlamaqdadırlar: “Qrup şəklində hərəkət etmələri, koordinasiya içində bir sıra bəzi fiziki işləri yerinə yetirmələri və ortaq şəkildə qərar almaları”. Bu robot ordularının bütün mexaniki və elektronik dizaynları bir qarışqa birliyinin davranışları göz önünə

alınaraq hazırlanmışdır. Böcək olan yoldaşlarına bənzərlikləri səbəbiylə onlara “qarışqa ordusu” robotları deyilməkdədir.

“Qarışqa ordusu” robot sistemi, başlanğıcda bir “material daşıma sistemi” olaraq hazırlanmışdır. Bu ssenariyə görə bir çox kiçik robot ortaq şəkildə cisimləri qaldırıb nəql etmək üçün vəzifələndiriləcəkdi. Daha sonra fərqli vəzifələrdə də istifadə edilmələrinə qərar verildi.

Mövzuyla əlaqədar bir yazıda, bu robotların nə məqsədlə istifadə ediləcəyi bu şəkildə təsvir edilər: Nüvə və təhlükəli maddə təmizliyi, mədənçilik (material çıxartma və qurtarma), mina təmizləmə, kəşfiyyat və keşikçəkmə, planetlərin səthlərinin araşdırılması və qazıntı.

Qarışqa robot texnologiya mövzusunda mütəxəssis olan Israel A. Wagner tərəfindən İsrail parlamentinə təqdim edilmiş olan bir hesabatda isə, qarışqa robot layihələri bu şəkildə təsvir edilməkdədir:



Qarışqa-robotlar ortaq hədəfi reallaşdırmaq üçün hazırlanmış fiziki varlıqlardır. Bunların çox məhdud enerji qaynağı istifadə etdikləri və iş sahələrində bir çox izlər buraxaraq ünsiyyət qurduqları görülür. İşlərin bu robotlar arasındakı paylaşması ya mərkəzi nəzarəti təmin edən və digər agentlərə təlimat göndərən bir fərd tərəfindən reallaşdırıla bilər, ya da fərdlərin əvvəldən itaət etmələri şərti ilə verilən bir vəzifənin tamamlanması da təmin edilə bilər.

Üçüncü bir yol isə, iş əsnasında bu əməkdaşlığın təbii olaraq əvvəldən qərar vermədən ortaya çıxması. Bunların istifadə məqsədi araşdırma, xəritə hazırlama, bir evin zəminini təmizləmə, bilinməyən bir planeti kəşf etmə, ya da bir mina sahəsini təmizləmə ola bilər.27

Bu nümunələrdə də görüldüyü kimi indiki vaxtda, qarışqaların ictimai həyatları bir çox layihənin təməlini meydana gətirməkdə və qarışqalar

nümunə götürülərək reallaşdırılan robot texnologiyaları insanlara faydalar təmin etməkdədir. Məhz bu səbəblə hz. Süleyman hekayəsində qarışqalara və bunların olduğu vadiyə diqqət çəkilməsi son dərəcə əhəmiyyətlidir. Ayələrdə bəhs edilən "qarışqalar" ifadəsiylə, robotlardan ibarət olan bir orduya işarə edilmiş ola bilər. Ayələrdə həmçinin gələcəkdə robot texnologiyasında yaşanacaq olan kəşflərə, robotların insan həyatında əhəmiyyətli bir rol alacaqlarına, bir çox ağır işi insanların yerinə yetirib onların həyatlarını daha komfortlu hala gətirəcəklərinə də işarə edilmiş ola bilər. Şübhəsiz doğrusunu Allah bilir.

## Atom enerjisi və nüvə parçalanması

> *Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də haqdan döndərilirsiniz!*
>
> **(Ənam surəsi, 95)**

Ənam surəsinin 95-ci ayəsində "toxumu" (elhabbi) və "nüvə" (enneva) ifadələriylə atomun yarılması, parçalanması ilə əlaqədar vəziyyətə işarə edilir ola bilər. Necə ki, "enneva" sözünün lüğəti mənaları arasında nüvə, mərkəz, atom nüvəsi sözləri də var. Həmçinin ayədə təsvir edilən dirinin ölüdən çıxarılması, ölü olan enerjidən Allahın maddəni yaratması şəklində şərh oluna bilər. Ölünün diridən çıxması isə, maddənin atomu hərəkətli olduğu üçün (diri), maddədən enerjinin (ölü) çıxması ola bilər (doğrusunu Allah bilir). Çünki diri olaraq tərcümə edilən "elhayye" canlı mənasının yanında aktiv, enerjili mənalarına da gəlməkdədir. Ölü olaraq tərcümə edilən "elmeyyiti" ifadəsinin də cansız mənası daşıması ilə, enerjini ifadə edir ola bilər.

Enerji elm adamları tərəfindən iş görmə həcmi şəklində müəyyən olunmaqdadır. Maddə isə yer üzündə və kainatın içində obyektləri meydana gətirən materialdır və elektron mikroskopu altında görülə bilən hərəkətdə olan atom və molekullardan meydana gələr. Albert Eynşteyn 20-ci əsrin əvvəlində enerji və maddənin atom səviyyəsində bir-birləriylə əlaqəli olduğunu qarşıya qoyaraq, maddənin enerjiyə çevrilməsinin mümkün ola biləcəyini ifadə etmişdir. Bu vəziyyət yuxarıda təsvir etdiyimiz, diridən ölünün çıxması yəni atom səviyyəsində hərəkətli maddədən enerjinin əldə edilməsi ola bilər. Həmçinin "çıxarır" olaraq tərcümə olunan "yuhricu" sözü, çölə çıxarmaq, saçmaq, xaricə doğru çıxarmaq, yaymaq (məsələn elektrik dalğalarını) mənalarını verməkdədir. Bu səbəbdən ayədə keçən sözlər atomdan əldə edilən enerji şəklini təsvir edilmiş ola bilər (doğrusunu Allah bilir).

Bilindiyi kimi zəmanəmizdə atomun nüvəsi yarılaraq hissələrə ayrıla bilməkdədir. Eynşteynin nəzəriyyələrindən yola çıxan elm adamları, 1940-cı illərdə nüvə reaksiyası yoluyla maddədən enerji əldə edə bilməyi bacarmışdır. Atomların parçalanması və ya yarılması ilə reallaşan bu əməliyyata "nüvə parçalanması" deyilməkdədir. Ənam surəsinin 95-ci ayəsində "faliku" sözü ilə ifadə edilən "yarma" hərəkəti də, atom parçalanması sözünün lüğət mənası olan (atom nüvəsini) yarıb ayırma əməliyyatını təsvir edilmiş ola bilər. Bu əməliyyat reallaşdırıldığında fövqəladə miqdarda enerji ortaya çıxar.




1. Atom 2. Nüvə 3. Neytron 4. Kvars — dövrümüzdə parçalanma üsulu ilə atom nüvəsi yarılaraq hissələrə ayrıla bilməkdədir.

Ənam surəsinin 95-ci ayəsindəki sözlər, daşıdıqları mənalar etibarilə son dərəcə hikmətlidir. Bu ayədə təsvir edilən hadisələr, atom enerjisinin əldə edilmə şəkli olan, atom nüvəsini parçalama əməliyyatına son dərəcə bənzərdir. Bu səbəbdən bu ayədə, 20-ci əsrin texnologiyası ilə mümkün olan nüvə parçalanma metoduna işarə edilmiş ola bilər (doğrusunu Allah bilir).

ÜÇÜNCÜ HİSSƏ

# Quranın keçmiş dövrlərlə əlaqədar xəbərləri

## Haman və qədim Misir kitabələri

Quranda qədim Misir haqqında verilən məlumatların bəziləri yaxın zamana qədər gizli qalmış bəzi tarixi həqiqətləri ortaya çıxarmaqdadır. Bu həqiqətlər, Qurandakı hər sözün müəyyən bir hikmətə görə istifadə edildiyini də bizə göstərməkdədir.

Quranda Fironla birlikdə adı çəkilən şəxslərdən biri "Haman"dır. Haman, Quranın 6 ayəsində, Fironun ən yaxın adamlarından biri olaraq zikr edilər.



19-cu əsrdə Misir heroqlifləri oxunana qədər "Haman" anlayışı bilinmirdi. Heroqliflər oxunduqda, Hamanın Fironun yaxın köməkçisi və "daş ocaqlarının başçısı" olduğu aydın oldu. (Altda, Misirdəki inşaat işçiləri) Diqqət ediləcək nöqtə, Quranda da Hamanın Fironun əmrində inşaat işlərini idarə edən bir adam olaraq deyilməsidir. Yəni Quranda, o dövrdə heç bir insan tərəfindən bilinə bilməyəcək bir məlumat verilmişdir.

Halbuki Tövratda hz. Musanın həyatını izah edən hissədə, Hamanın adı heç keçməz. Lakin Haman adı Əhdi-Ətiqin sonrakı hissələrində, hz. Musadan təxminən 1100 il sonra yaşamış və yəhudilərə zülm etmiş bir Babil kralının köməkçisi olaraq bəhs edilməkdədir.

Quran haqqında ağıla sığmaz şərhlər edən bəzi müsəlman olmayanların iddialarının dayaqsız olduğu bir Misir heroqlifinin bundan təxminən 200 il əvvəl oxunub, qədim Misir kitabələrində "Haman" adının olmasıyla ortaya çıxdı. 18-ci əsrə qədər qədim Misir dilində yazılmış kitabələr və yazılar oxuna bilmirdi. Qədim Misir dili heroqlifi və əsrlər boyunca bu dil varlığını davam etdirmişdi. Lakin 2-ci və 3-cü əsrdə Xristianlığın yayılması və mədəni təsiri ilə Misir,

dinini olduğu kimi dilini də unutdu; yazılarda heroqlif istifadəsi azaldı və sona çatdı. Heroqlif yazısının istifadə edildiyi bilinən ən son tarix 394-cü ilinə aid bir kitabədir. Bundan sonra bu dil unuduldu və bu dildə yazılmış yazıları oxuya bilən və anlaya bilən kimsə qalmadı. Ta ki, bundan təxminən iki əsr əvvəlinə qədər...

Qədim Misir heroqlifi 1799-cu ildə, Rosetta Stone adı verilən, 196-cı il tarixinə aid bir kitabənin tapılması ilə oxuna bilindi. Bu kitabənin xüsusiyyəti üç fərqli yazı ilə yazılmış olması idi: Heroqlif, demotik (heroqlifin əl yazısı şəkli) və Yunan dilində. Yunan dilində mətnin də köməyiylə kitabədəki qədim Misir yazısı oxunmağa çalışıldı. Kitabənin tam oxunması, Jean-Françoise Champollion adlı bir Fransız tərəfindən tamamlandı. Beləcə unudulan bir dil və bu dilin izah etdiyi tarix işıqlanmış oldu. Bu sayədə qədim Misir sivilizasiyası, onların dinləri və ictimai həyatları haqqında bir çox şey öyrənildi.

Heroqlifin oxunması ilə mövzumuzla əlaqəli çox əhəmiyyətli məlumat daha əldə edilmiş oldu: "Haman" adı həqiqətən də Misir kitabələrində bəhs edilirdi. Vyanadakı Hof Muzeyində olan bir abidə üzərində bu addan danışılırdı. Eyni kitabədə Hamanın Firona olan yaxınlığı da vurğulanırdı.28

Bütün kitabələrə söykənərək hazırlanan "Yeni Krallıqdakı insanlar" lüğətində isə, Hamandan "Daş ocaqlarında çalışanların başçısı" olaraq bəhs edilirdi.29

Ortaya çıxan nəticə əhəmiyyətli bir həqiqəti ifadə edirdi. Haman eynilə Quranda bəhs edildiyi kimi hz. Musa zamanında Misirdə yaşayan bir adam idi. Quranda bəhs edildiyi kimi, Firona çox yaxın idi və inşaat işləri ilə maraqlanırdı.

Quranda, Fironun qüllə inşa etmə işini Hamandan istəməsini xəbər verən ayə, bu arxeoloji tapıntı ilə tam bir uyğunluq içindədir:

> *Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir qüllə düzəlt ki, Musanın məbudunun yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm.*
>
> **(Qəsas surəsi, 38)**




1. Misir sahilləri

Nəticə olaraq, qədim Misir kitabələrində Hamanın adının olması, Quranın, qeybə hakim olan Allah Qatından endirilmiş olduğunu bir daha ortaya qoydu. Çünki Quranda Peyğəmbərimiz (s.ə.v)-in yaşadığı dövrdə bilinməsi və həll edilməsi mümkün olmayan bir tarixi məlumat möcüzəvi şəkildə bizlərə çatdırılmışdır.




1. Hökmdarlıq 2. Nil çayı 3. Misir 4. Aralıq dənizi



Firona aid kral arabası Misirdə muzeydə sərgilənir; bu arabaya bənzər araba dənizin ikəyə ayrıldığı yerdə aparılan tədqiqatlarda tapılmışdır.



Cəbel-i Musa adı ilə bilinən dağ, ümumi qəbulə görə Sina yarımadasındadır. Lakin yeni tapıntılar onun Qırmızı dənizin Ərəbistan sahilində olduğunu göstərir.

## Firon və yaxın ətrafına gələn bəlalar

Firon və yaxın ətrafı özlərinin çox tanrılı sistemlərinə, bütpərəst inanclarına elə bağlı idilər ki, hz. Musanın möcüzələrlə gəlməsi belə onları bu batil inanclarından çevirməmişdi. Üstəlik bunu açıq şəkildə ifadə edirdilər:

> *Kafirlər dedilər: "Sən bizi sehrləmək üçün nə qədər möcüzə gətirsən də, biz sənə inanan deyilik!*
>
> **(Əraf surəsi, 132)**

Bu davranışlarının qarşılığında Allah onlara dünyada da bir əzab daddırmaq üçün ayənin ifadəsiylə "nə qədər möcüzələr" (Əraf surəsi, 133) olaraq fəlakətlər göndərdi. Bunlardan ilki quraqlıq və dolayısilə əldə edilən məhsulların azalması idi. Mövzuyla əlaqədar Quran ayəsi belədir:

> *Biz Firon xalqını quraqlıq illərinə və məhsul qıtlığına məruz qoyduq ki, bəlkə düşünüb ibrət alsınlar.*
>
> **(Əraf surəsi, 130)**

Misirlilər əkinçilik sistemlərini Nil çayına əsasən qurmuşdular və bu sayədə təbii şərtlərin dəyişməsi onlara təsir etmirdi. Ancaq Firon və yaxın ətrafının Allaha qarşı təkəbbürlənmələri və Allahın peyğəmbərini tanımamaları səbəbi ilə onlara gözlənilməz fəlakət gəlmişdi. Lakin ayədə də ifadə edildiyi kimi "düşünüb ibrət almaları" lazım olarkən, bu olanları hz. Musanın və İsrailoğullarının gətirdiyi bir uğursuzluq olaraq qəbul etdilər. Ardından Uca Allah, ardıcıl fəlakətlər göndərdi. Bu fəlakətlər Quranda belə bildirilmişdir:

> *Biz də onların üstünə müxtəlif möcüzələr olaraq tufan, çəyirtkələr, bitlər, qurbağalar və qan göndərdik. Onlar isə təkəbbürlük göstərdilər və günahkar bir tayfa oldular.*
>
> **(Əraf surəsi, 133)**

Misir xalqının başına gələn fəlakətlərlə əlaqədar olaraq papirusda bəhs edən məlumatlar eynilə Quranda izah edildiyi kimi idi. Quranda Misir xalqının başına gələn bu bəlalarla əlaqədar bildirilənlər, 19-cu əsrin əvvəlində Orta Krallıq dövründən qalan İpuver papiruslarının Misirdə tapılmasıyla bir daha təsdiqləndi. Bu papirus tapıldıqdan sonra, 1909-cu ildə Leiden Hollandiya muzeyinə aparılıb A. H. Gardiner tərəfindən tərcümə olundu. Papirusda Misirdəki qıtlıq, quraqlıq kimi fəlakətlər və Misirdən kölələrin qaçması izah edilməkdədir. Həmçinin bəhs edilən papirusun yazarı İpuverin də bu hadisələrin şahidi olduğu aydın olmaqdadır.

Misir xalqının başına gələn ardıcıl fəlakətlər Quranda izah edilən qıtlıq, qanın müsəllət olması kimi bəlalarla son dərəcə uyğundur.30 Allahın Quranda bildirdiyi bu fəlakətlərdən İpuver papiruslarında belə bəhs edilməkdədir:

Fəlakətlər bütün məmləkəti əhatə etmişdi. Hər yerdə qan vardı.

Çay qan oldu.

Dünən gördüyüm hər şey həlak oldu. Biçilmiş kimi hər torpaq lüm-lüt...

Misirin aşağısı məhv oldu... Bütün saray kimsəsiz qaldı. Sahib olunan hər şey: buğda və arpa, qazlar və balıqlar...

Həqiqətən əkin hər yerdə məhv oldu...



Torpaqlar, bütün qarışıqlığa və səs-küyə baxmayaraq... Doqquz gün boyunca saraydan heç bir çıxış yox idi və kimsə o şəxsin üzünü görə bilmədi... Şəhərlər güclü axıntılar tərəfindən yerlə bir oldu... Yuxarı Misir məhv olmuşdu... hər yerdə qan vardı... ölkədə epidemiya xəstəliklər baş

qaldırdı... Bu gün həqiqətən kimsə şimala Byblosa gedə bilmir. Mumiyalarımız üçün nə edəcəyik?... Qızıl azalır...

İnsanlar sudan qorxar oldu. Su içdikdən sonra belə susadılar.

Məhz suyumuz! Xoşbəxtliyimiz! Edə biləcəyimiz nə var? Hər şey talan oldu.

Şəhərlər viran qaldı. Yuxarı Misir qurudu.

Məskunlaşma sahələri bir dəqiqə içində alt-üst oldu.

20-ci əsrdə məlumat sahibi olduğumuz bu papirusda Firon və qövmünün başına gələn fəlakətlərdən Quran ilə böyük paralellik göstərməsi, Quranın İlahi qaynaqlı olduğunu bir daha ortaya qoymaqdadır.

## Hz. Musa (ə.s)-dan sehrbaz olaraq bəhs edilməsi

Firon zamanından qalma papiruslarda, hz. Musadan "sehrbaz" olaraq bəhs edilməkdədir (bəhs edilən papiruslar İngiltərədə "British Museum"dadır). Firon və tərəfdaşları bütün səylərinə baxmayaraq, hz. Musanın qarşısında heç bir zaman üstün gələ bilməmişlər.

Bu ədalətin idarəçisi Günəşin oğlu Ammonun böyük qardaşı olan və atası Günəş kimi daim yaşayan Ramzesin krallığı zamanında yeddinci paynı ayının, ikinci günü yazıldı... Bu məktubu aldığı vaxt qalx, işə başla tarlaların nəzarətini üzərinə götür. Taxılın hamısını məhv edən bir sel kimi yeni bir bəlanın xəbərini aldığında başını işlət (yəni düşün), Hemton onları ehtirasla yeyərək məhv etdi, anbarlar dəlindi, siçanlar tarlalarda yığın halındadır, birələr qasırğa şəklindədir, əqrəblər ehtirasla yeyirlər, kiçik ağcaqanadların açdığı yaralar sayılmayacaq qədər çoxdur. Və əhalini qəmləndirir... Scribe, (Scribe ingiliscə Yəhudi alimi deməkdir. Burada nəzərdə tutulan böyük ehtimalla hz. Musadır.) küllü miqdarda taxılı məhv

etmək məqsədinə nail oldu... Sehrlər onlar üçün çörəkləri kimidir. Scribe... yazmaq sənətində insanların birincisidir.”

Hz. Musadan “sehrbaz” olaraq bəhs edilməsi Quranda bu ayələrdə xəbər verilir:

> *Bizim onlara göstərdiyimiz hər bir möcüzə, əvvəlkilərdən daha da üstün idi. Biz onları əzabla yaxaladıq ki, bəlkə, doğru yola qayıdalar.*
>
> **(Zuxruf surəsi, 49)**

> *Kafirlər dedilər: “Sən bizi sehrləmək üçün nə qədər möcüzə gətirsən də, biz sənə inanan deyilik!”*
>
> **(Əraf surəsi, 132)**

## Quranda Firon sözü

Əhdi-Ətiqdə hz. İbrahim ilə hz. Yusif zamanındakı Misir hökmdarından Firon deyə bəhs edilər. Halbuki Firon xitabı hər iki peyğəmbərdən çox sonra istifadə ediləcək.

Quranda hz. Yusif dövründəki Misir rəhbərindən danışılarkən “hökmdar, kral, sultan” mənalarını verən ərəb dilində “əl məlik” sözü istifadə edilmişdir:

> *Hökmdar dedi: “Onu yanıma gətirin!”...*
>
> **(Yusif surəsi, 50)**



Hz. Musanın dövründə olan Misir rəhbərindən isə "Firon" kəlməsi ilə bəhs edilir. Quranda bildirilən bu fərq, Əhdi-Cədid və Əhdi-Ətiqdə ya da yəhudi tarixçilər tərəfindən edilməz; yalnız Firon ifadəsi istifadə edilər.

Necə ki, həqiqətən də Misir tarixində "Firon" termininin istifadəsi yalnız keçən dövrə aid idi; Firon xitabı ilk olaraq e.ə. 14-cü əsrdə IV Amenhotep dövründən etibarən istifadə edilməyə başlamışdır. Hz. Yusif isə bu tarixdən ən az 200 il əvvəl yaşamışdır.32

"Encylopedia Britannica"da, Firon sözü üçün yeni krallıqdan etibarən (18-ci xanədandan başlayar; e.ə. 1539-1292) 22-ci xanədana qədər (e.ə. 945-730) istifadə edilən bir hörmət ünvanı olduğu, daha sonraları bu xitabın kralın ünvanına çevrildiyi, daha əvvəllər isə bu ünvanın heç istifadə edilmədiyi ifadə edilər. Bu mövzudakı başqa bir məlumat isə "Academic American Encyclopedia"da verilir və Firon ləqəbinin Yeni Krallıqdan etibarən istifadə edilməyə başlandığı ifadə edilmişdir.

Görüldüyü kimi Firon sözünün istifadəsi müəyyən bir tarixdən etibarən bəhs edilmişdi. Bu səbəbdən Quranda bu fərqin tam olaraq qeyd edilməsi hz. Yusif zamanındakı hökmdardan həmişə "Kral" olaraq danışılarkən, hz. Musa zamanındakı hökmdardan hər səfərində "Firon" olaraq bəhs edilməsi Quranın Allahın sözü olduğunu isbat edən bir başqa dəlildir.




1. Bağdad 2. Dəclə 3. Fərat




1. Mesopotamiya düzənliyi 2. Tufandan sonrakı sivilizasiyalar

## İrəm şəhəri

1990-cı illərin əvvəlində dünyanın tanınmış qəzetləri çox əhəmiyyətli arxeoloji tapıntıya "Möhtəşəm Ərəb şəhəri tapıldı", "əfsanəvi Ərəb şəhəri tapıldı", "qumların Atlantidası Ubar" başlıqları ilə yer verdilər. Bu maraqlı arxeoloji tapıntıya daha əhəmiyyətli hala gətirən, adının Quranda xatırlanması idi. O günə qədər Quranda bəhsi keçən Ad qövmünün bir əfsanə olduğunu və ya heç bir zaman olmadığını düşünən bir çox insan, bu yeni tapıntı qarşısında heyrətə düşdü. Quranda haqqında danışılan bu şəhəri tapan insan, həvəskar bir arxeoloq olan Nicholas Clapp idi.

Ərəb tarixçi və sənədli film prodüseri olan Nicholas Clapp, Ərəb tarixi üzərinə etdiyi tədqiqatlar əsnasında, 1932-ci ildə İngilis tədqiqatçısı Bertram Tomas tərəfindən yazılmış "Arabia Felix" adında kitaba rast

gəlmişdi. “Arabia Felix” romalıların Ərəb yarımadasının cənubunda olan və günümüzdəki Yəmənin və Ummanı əhatə edən bölgəyə verdikləri ad idi. Bu bölgəyə yunanlılar “Eudaimon Arabian”, Orta əsrlərdəki Ərəb alimləri isə “el-Yemen es-Saiyd” adını verirdilər. Bu adların hamısı “xoşbəxt Yəmən” mənasını verirdi. Antik dövrdə məşhur olan bu bölgə Hindistan və Şimali Ərəbistan arasında edilən ədviyyat ticarətinin mərkəzidir. Həmçinin bölgədə yaşayan qövmlər “kəhrəba” adında nadir olan və o zamanlar qızıl dəyərində olan şam ağacı qatranının istehsalını edirdilər.

Kitabında bu məlumatlara əhatəli olaraq yer verən İngilis tədqiqatçısı Bertram Tomas, Ad qövmünün yaşadığı Ubar şəhərinin qalıqlarının tapıldığı bölgəyə tədqiqat gəzintisi etmişdi. Gəzintisi əsnasında səhrada yaşayan bədəvilər, Ummanın sahilə yaxın yerində olan bu bölgədə, qədim bir cığır yolu göstərmişlər və bu cığırın Ubar adlı çox qədim bir şəhərə aid olduğunu izah etmişlərdi.

Ubarda aparılan qazıntılarda Quranda ifadə edilən şəkli ilə bir çox incəsənət abidələri və yüksək mədəniyyət əsərləri tapıldı. İngilis araşdırmaçı, Ubarın varlığını sübut etmək üçün iki ayrı yola müraciət etdi. Əvvəl bədəvilər tərəfindən var olduğu deyilən cığır izlərini tapdı. NASA-ya müraciət edərək bu bölgənin şəkillərinin peyk vasitəsilə çəkilməsini istədi. Daha sonra da Kaliforniyada Huntington kitabxanasında olan qədim kitabələri və xəritələri araşdırmağa başladı. Qısa bir tədqiqatdan sonra Misir-Yunan coğrafiyaşünası Batlamyus tərəfindən 200-cü ilində çəkilmiş bir xəritə tapdı. Xəritədə, bölgədə olan qədim şəhərin yeri və bu şəhərə doğru gedən yolların şəkli göstərilmişdi. Bu zaman NASA-nın çəkdiyi şəkillərdə, yerdən adi gözlə görülməsi mümkün olmayan, ancaq havadan bir bütün halında görülə bilən bəzi yol izləri ortaya çıxmışdı. Həm qədim xəritədə ifadə edilən yollar, həm də peykdən çəkilən şəkillərdə görülən yollar bir-birləriylə kəsişirdilər. Bu

yolların bitmə nöqtəsi isə qədim şəhər olduğu aydın olan geniş bir sahə idi.

Beləcə bədəvilərin şifahi olaraq izah etdikləri hekayələrə mövzu olan əfsanəvi şəhərin yeri tapılmış oldu. Aparılan qazıntılarda qumların içindən qədim bir şəhərin qalıqları çıxmağa başladı. Bu səbəblə də bu itkin şəhər "Qumların Atlantidası Ubar" olaraq adlandırıldı.



Bu qədim şəhərin Quranda bəhs edilən Ad qövmünün şəhəri olduğunu sübut edən əsl dəlil isə şəhərin qalıqları idi. Xarabalıqların ilk ortaya çıxarılmasından etibarən, bu məhv olmuş şəhərin Quranda bəhs edilən Ad qövmü və İrəmin sütunları olduğu aydın olmuşdu. Çünki qazıntılarda ortaya çıxarılan strukturlar arasında Quranda varlığına diqqət çəkilən uzun sütunlardan bəhs edilirdi. Qazıntı işlərini aparan tədqiqat qrupundan Dr. Juris Zarins də, bu şəhəri digər arxeoloji tapıntılardan ayıran şeyin yüksək sütunlar olduğunu və dolayısilə bu şəhərin Quranda bəhsi keçən Ad qövmünün şəhəri İrəm olduğunu söyləyirdi. Quranda, İrəmdən belə danışılırdı:

> *Məgər görmədinmi ki, Rəbbin nələr etdi Ad qövmünə, sütunlar sahibi İrəm qəbiləsinə halbuki, yer üzündə onlar kimisi xəlq edilməmişdi.*
>
> **(Fəcr surəsi, 6-8)**

Görüldüyü kimi Quranda keçmişlə əlaqədar verilən məlumatların tarixi məlumatlarla bu cür uyğunluq içində olması, Quranın Allah Kəlamı olduğunun ayrı bir dəlilidir. (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, "Qövmlərin həlakı")



Yuxarıdakı peyk fotoşəkillərdə Ərəb yarımadasının cənubunda yerləşən Ummadan bir hissə görülməkdədir. 1992-ci ildə NASA-nın kosmosdan göstərdiyi Ubar şəhərinə aid fotoşəkillərdə, antik çöl yollarına aid izlər təsbit edilmişdir. Quranda 1400 il əvvəl xəbər verilən Ad qövmü, dövrümüzün texnoloji imkanları ilə bir Quran möcüzəsi olaraq ortaya çıxmışdır.

## Sodom və Qomorra şəhərləri

Lut peyğəmbər, İbrahim peyğəmbər ilə eyni dövrdə yaşadı. Hz. Lut, hz. İbrahimə qonşu qövmlərdən birinə elçi olaraq göndərilmişdi. Bu qövm Quranda ifadə edildiyinə görə o günə qədər dünya üzərində görülməmiş bir pozğunluğu, homoseksuallığı tətbiq edirdi. Hz. Lut, onlara bu pozğunluqdan imtina etmələrini söylədiyində və onlara Allahın İlahi təbliğini gətirdiyində onu yalanladılar, hz. Lutun peyğəmbərliyini inkar etdilər və pozğunluqlarına davam etdilər. Bunun nəticəsində də qövm, qorxunc bir fəlakətlə həlak edildi.

> *Lutu da elçi göndərdik. Bir zaman o, öz qövmünə demişdi: "Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız". Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır" – deməkdən başqa bir şey olmamışdı. Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan oldu. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu.*
>
> **(Əraf surəsi, 80-84)**

> *Biz günah əməllər törətdiklərinə görə bu şəhərin sakinlərinin üstünə göydən bir əzab endirəcəyik. Həqiqətən, Biz düşünən adamlar üçün o şəhərdən açıq-aydın bir əlamət saxladıq.*
>
> **(Ənkəbut surəsi, 34-35)**

Hz. Lutun yaşadığı və sonra həlaka uğrayan bu şəhərin Əhdi-Ətiqdə bəhs edilən adı Sodomdur. Qırmızı dənizin şimalında yerləşmiş olan bu qövmün, Quranda yazılanlara uyğun bir şəkildə həlak edildiyi aydın olmuşdur. Aparılan arxeoloji işlərdən aydın olduğuna görə, şəhər bugünkü İsrail-İordaniya sərhədi boyunca uzanan Duz gölünün (Ölü dəniz) yaxınlarındadır. Elm adamlarının tapıntılarına görə bu bölgə olduqca çox miqdarda kükürdlə örtülüdür. Bu səbəblə, bütün bölgədə heyvan və ya bitki olaraq heç bir həyat formasına rast gəlinməməkdədir və bu bölgə məhvin bir simvolu vəziyyətindədir.

Bilindiyi kimi kükürd vulkanik partlayışlarla ortaya çıxan elementdir. Necə ki, Quranda bildirilən həlak şəkli zəlzələ və vulkanik partlayışlar olduğuna dair açıq-aşkar dəlillər daşımaqdadır. Alman arxeoloq Werner Keller bu bölgə haqqında belə deməkdədir:

Bölgədəki ən böyük dağıntılardan biri olan bu bölgədə partlayışlar, göy gurultulu leysan, yanğınlar və təbii qaz ilə qorxunc bir zəlzələ yaşandı və Siddim vadisi ilə birlikdə Lut qövmünün şəhərləri yerin dərinliklərinə qərq edildi... Bu zəlzələ əsnasında, yer qabığının çatlayıb çökməsi, qabığın altında yatan vulkanlara sərbəst yol vermişdir. İordan çayının yuxarı vadisində bu gün də sönmüş kraterlərə rast gəlinir, buralarda əhəng layları üzərində geniş lava kütlələri və bazalt layları yerləşmişdir.33

Məhz bu lava və bazalt layları, bir vaxtlar burada vulkan partlayışının və zəlzələnin olduğunu göstərən ən böyük dəlillərdir. Onsuz da Ölü dəniz aktiv seysmik bölgənin, yəni zəlzələ qurşağının tam üstündə yerləşməkdədir:


Ölü dənizə aid fotoşəkil

Ölü dəniz Rift vadisi deyilən tektonik mənşəli bir çökəklikdə yerləşir. Bu vadi şimalda Təbəriyyə gölündən, cənubda Arabah vadisinin ortasına qədər 300 km.lik bir çıxıntıda yerləşir.34

Lut qövmünün başına gələn fəlakətin texniki istiqaməti, geoloqların araşdırmalarından aydın olmaqdadır. Buna görə, Lut qövmünü yox edən zəlzələ, böyük məsafədə əmələ gələn tektonik qırılma (fay xətti) nəticəsində meydana gəlmişdir: İordan çayının yatağını meydana gətirən 190 kilometrlik məsafə boyunca cəmi 180 metrlik eniş edər. Bu vəziyyət və Ölü dənizin dəniz səviyyəsindən 400 metr alçaq olması, burada bir zamanlar böyük bir geoloji hadisənin meydana gəldiyini göstərən əhəmiyyətli dəlillərdəndir.

İordan çayı ilə Ölü dənizin bu maraqlı quruluşu da, yer kürəsinin bu bölgəsindən keçən fay xəttinin ancaq bir hissəsindən ibarətdir. Bu fay xətti Tavr dağlarının ətəklərindən başlayıb cənuba doğru Ölü dənizin Cənub sahillərindən və Ərəb səhrası üzərindən Əqəbə körfəzinə uzanıb oradan da Qırmızı dənizə keçərək Afrikada sona çatmaqdadır. Bu uzun çöküntünün uzanıb getdiyi yerlərdə güclü vulkanik proseslərin baş verdiyi aydın olur. Belə ki, İsraildəki Cəlilə dağlarında, İordaniyanın yüksək yaylalarında, Əqəbə körfəzi və digər yaxın yerlərdə qara bazalt və lavalar var.

Bütün bu qalıqlar və coğrafi xüsusiyyətlər, Ölü dənizində böyük bir geoloji hadisənin yaşandığını göstərməkdədir.

"National Geographic" jurnalının 1957-ci il dekabr ayı tarixli nəşrində bu mövzuyla əlaqədar olaraq aşağıdakı ifadələr yer alır:

Sodom təpəsi, Ölü dənizə doğru yüksələr. Heç kim indiyə qədər yox olan şəhərlər Sodom və Qomorranı tapa bilmədi, lakin elm adamlarına görə bu şəhərlər qayalıqların qarşısındakı Siddim vadisində dayanırlar. Böyük ehtimalla Ölü dənizin daşqın suları və zəlzələnin altında qaldılar.35

Məhvə uğramış bu şəhərlə əlaqədar işarə edilən məlumatlardan biri də, Hicr surəsinin 76-cı ayəsində bildirildiyi kimi bu şəhərlərin hələ də əsas yol üzərində olmasıdır. Coğrafiyaşünaslar bu bölgənin Ərəb yarımadasından Suriya və Misirə qədər uzanan, Ölü dənizin Cənub-Şərqindəki əsas yol üzərində olduğunu təsbit etmişlər. (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, "Xalqların həlakı")

> *Oranın altını üstünə çevirdik və onların üzərinə odda bişmiş gil daşlar yağdırdıq. Şübhəsiz ki, bunda başa düşənlər üçün dəlillər vardır. Həqiqətən, onlar Məkkədən Şama gedən yolun üstündə yaşayırdılar. Şübhəsiz ki, bunda möminlər üçün dəlillər vardır.*
>
> **(Hicr surəsi, 74-77)**

## Səba xalqı və Arim seli

Səba xalqı, Cənubi Ərəbistanda yaşamış olan dörd böyük sivilizasiyadan biridir. Səba qövmündən bəhs edən tarixi qaynaqlarda bu qövmün finikiyalılar kimi geniş ticarət fəaliyyəti ilə məşğul olduğu bildirilir. Səba xalqı, tarixdə mədəni bir qövm olaraq bilinmişlər. Səba hökmdarlarının kitabələrində "təmir etmək", "təqdis etmək", "inşa etmək" kimi sözlər çoxluq təşkil edir. Bu qövmün ən əhəmiyyətli əsərlərindən olan Mərib bəndi də, sivilizasiyanın texnoloji səviyyəsinin əhəmiyyətli göstəricilərindəndir.

Səba dövləti, bölgənin ən güclü ordularından birinə sahib idi. Ordusu sayəsində işğalçı siyasət izləyə bilirdi. İnkişaf etmiş mədəniyyəti və ordusu ilə Səba dövləti, tam mənasıyla zamanında o bölgənin "super gücü" idi. Səba dövlətinin bu güclü ordusundan Quranda da bəhs edilməkdədir. Quranda qeyd edilən Səba ordusunun sərkərdələrinə aid bir ifadənin bu ordunun öz gücünə necə güvəndiyini göstərir. Sərkərdələr Səbanın qadın hökmdarına (Məlikəsinə) belə deyirlər:

> *..."Biz böyük bir qüvvət və qüdrət sahibiyik. Buyuruq isə sənindir. Nə buyuracağını özün fikirləş!"*
>
> **(Nəml surəsi, 33)**

Səba xalqı, o dövrə görə olduqca inkişaf etmiş texnologiya ilə inşa etdikləri Mərib bəndi ilə birlikdə böyük suvarma həcminə sahib olmuşdu. Bu üsulla əldə etdikləri bol məhsullu torpaqları və ticarət yolu üzərindəki idarəetmələri, onlara görkəmli və rifah dolu həyat yaşadırdı. Ancaq, bütün bunlar səbəbi ilə Özünə şükür etmələri lazım olan Allahdan (Quranın bildirildiyinə görə) "üz çevirdilər". Üstəlik onlara edilən xəbərdarlıq və xatırlatmaları da dinləmədilər. Bu pis əxlaqlarına görə Allah Qatından əzaba düçar oldular və bəndləri aşdı; "Arim seli" bütün torpaqlarını yerlə bir etdi.

Səba ölkəsinin paytaxtı, əlverişli coğrafi mövqeyə sahib olduğu üçün yüksək zənginliyə çatmış Mərib şəhəri idi. Paytaxt, bölgədə olan Adhana çayının çox yaxınında idi. Bu çayın Cebel Balaka girdiyi nöqtə, su anbarına çox uyğun idi; bundan faydalanan Səba xalqı da sivilizasiyalarını qurma mərhələsində ikən bura bir su anbarı tikmişlər və suvarmağa başlamışlardı. Bu su anbarı sayəsində də çox yaxşı rifah səviyyəsinə qovuşmuşlardı. Paytaxt Mərib, o dövrün ən inkişaf etmiş şəhərlərindən biri idi. Bölgəni gəzən və bu diyarı olduqca tərifləyən yunan yazıçı Pliny, buranın nə qədər yaşıl bölgə olduğundan bəhs etməkdə idi.

Məribdəki bu su anbarın yüksəkliyi 16 metr, genişliyi 60 metr və uzunluğu da 620 metr idi. Hesablamalara görə, su anbarı vasitəsilə suvarılan ərazinin ümumi sahəsi 9600 hektar idi ki, bunun da 5300 hektarı Cənub, qalanı isə Şimal düzənliyinə aid idi. Səba kitabələrində bu iki düzənlik haqda bəzən "Mərib və iki düzənlik" deyə bəhs edilirdi. Məhz Qurandakı

"sağdan və soldan iki bağça" ifadəsi, böyük ehtimalla bu iki vadidəki dəbdəbəli bağ və bağçalara işarə edər. Bu su anbarı və sulama sistemi sayəsində bölgə, Yəmənin ən yaxşı sulanan və ən məhsuldar ərazisi olaraq tanınmışdı. Fransız J. Holevy və Avstriyalı Glaser, Mərib su anbarının çox qədim dövrlərdən bəri var olduğunu yazılı sənədlərlə isbat etdilər. Himer ləhcəsi ilə yazılan sənədlərdə bu su anbarın ölkə torpaqlarını məhsuldar etdiyi yazılı idi.



Mərib məbədinin qalıqları

542-ci ildə dağılan bənd, Quranda bəhs edilən "Arim seli"nə gətirib çıxarmış və böyük təxribata səbəb olmuşdu. Səba xalqının yüzlərlə ildən bəri istifadə etdiyi bağları, bağçaları və əkinçilik sahələri tamamilə yox olmuşdu. Bəndin dağılmasından sonra Səba xalqının da sürətlə tənəzzül etməyə başladığı görünür. Bəndin dağılması ilə başlayan bu tənəzzül Səba dövlətinin süqutu ilə nəticələndi.

Yuxarıda ifadə etdiyimiz tarixi həqiqətlər işığında Quran ayələrini araşdırdığımız zaman, ortada qəti uyğunluq olduğunu görərik. Arxeoloji tapıntılar və tarixi həqiqətlər, Quranda yazanlara işarə etməkdədir. Ayədə ifadə edildiyi kimi, onlara göndərilən peyğəmbərin xəbərdarlıqlarını dinləməyən və Rəbbimizin nemətinə nankorluq edən xalq, sonunda qorxunc bir sel fəlakəti ilə cəzalandırılmışdır. Quranda Səba dövlətinə göndərilən sel fəlakəti belə təsvir edilməkdədir:

> *Səba qəbiləsinin yaşadığı yerdə nişanə – biri sağda, digəri də solda olan iki bağça var idi. Onlara: "Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. Budur gözəl diyar və Bağışlayan Rəbb!" – deyilmişdi. Amma onlar üz döndərdilər, Biz də üstlərinə güclü sel göndərdik. Onların iki bağçasını acı meyvəli, yulğunlu və içində bir az sidr ağacı olan iki bağla əvəz etdik. Nankorluqlarına görə onları belə cəzalandırdıq. Məgər biz nankordan başqasını cəzalandırarıqmı?*
>
> **(Səba surəsi, 15-17)**

Quranda Səba qövmünə göndərilən əzabdan "Seyl-ül Arim" yəni "Arim seli" olaraq bəhs edilməkdədir. Quranda bəhs edilən bu ifadə, eyni zamanda bu selin meydana gəliş şəklini göstərməkdədir. Çünki "Arim" sözünün mənası, anbar, ya da səddir. "Seyl-ül Arim" sözü də, səddin dağılması nəticəsində meydana gələn bir seli izah etməkdədir. Bu mövzuyla əlaqədar İslam şərhçiləri də Quranda Arim seli ilə əlaqədar olaraq istifadə edilən terminlərdən yola çıxaraq, mövzuyla əlaqədar tutarlı yer və zaman təsbitləri etmişlərdi. Mevdudi təfsirində belə yazır:



Yuxarıda və yan səhifədə xarabalıqlarına aid şəkilləri görülən Mərib səddi, Səba xalqının ən əhəmiyyətli əsərlərindən biri idi. Quranda bəhs edilən Arim seli ilə birgə bu sədd dağıldı və Səba dövləti iqtisadi yöndən zəifləyərək bir müddət sonra dağıldı.

Mətndəki (Seyl-ül Arim) ifadəsində istifadə edildiyi kimi "arim" sözü "anbar, sədd" mənasını verən və Cənub ərəbcəsində istifadə edilən "arimen" sözündən törəmişdir. Yəməndə aparılan qazıntılarda ortaya çıxarılan xarabalarda bu söz tez-tez bu mənada istifadə edilmişdir. Məsələn Yəmənin həbəş hökmdarı Ebrehenin böyük Mərib səddinin təmirindən sonra yazdırdığı 542 və 543-cü il tarixli bir kitabədə, bu söz təkrar anbar (sədd) mənasında istifadə edilmişdir. O halda Seyl-ül

Arim, “bir sədd yıxıldığında meydana gələn sel fəlakəti” mənasını verər. “...Onların iki bağçasını acı meyvəli, yulğunlu və içində bir az sidr ağacı olan iki bağla əvəz etdik.” (Səba surəsi, 16). Yəni səddin (anbarın) yıxılmasından sonra meydana gələn sel nəticəsi bütün ölkə xarab oldu. Səba xalqı dağların arasına sədlər tikərək qazdıqları kanallar dağıldı və bütün sulama sistemi pozuldu. Bunun nəticəsi daha əvvəldən bir bağça kimi olan ölkə yabanı otların yetişdiyi bir cəngəllik halına gəldi və kol bitkilərinin albalıya bənzər meyvəsindən başqa yeyilə biləcək heç bir meyvə qalmadı.36

Sütunların üzərində Səba dilində yazılmış kitabələr var. “Müqəddəs Kitab doğrunu söylədi” (Und die bibel hat doch recht) kitabının yazarı Xristian arxeoloq Werner Keller də, Arim selinin Qurana uyğun olaraq reallaşdığını qəbul edərək belə yazır:

Belə bir anbarın olması və dağılaraq şəhəri tamamilə məhv etməsi Qurandakı bağça sahibləri ilə əlaqədar verilən nümunənin həqiqətən də meydana gəldiyini sübut edir.37

Arim seli ilə birlikdə gələn fəlakətdən sonra bölgədə çölləşmə başlamış və əkinçilik sahələrinin yox olmasıyla Səba qövmünün ən əhəmiyyətli gəlir qaynağı da əllərindən çıxmışdı. Allahın onları iman etməyə və şükür etməyə çağırmasını göz ardı edən xalq, sonunda belə bir fəlakətlə cəzalandırıldı (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, “Qövmlərin həlakı”)

## Hicr xalqı

Dövrümüzdə Səmud qövmü, Quranda bəhsi keçən qövmlər içində haqqında ən çox məlumata sahib olunanlardan biridir. Tarixi qaynaqlar Səmud adlı bir qövmün həqiqətən yaşadığına işarə etməkdədir.

Quranda bəhsi keçən Hicr xalqı və Səmud qövmünün əslində eyni qövm olduqları təxmin edilməkdədir; çünki Səmud qövmünün bir başqa adı da Əshabi Hicrdir. Bu vəziyyətdə "Səmud" sözü bir xalqın adı, Hicr şəhəri isə bu xalqın qurduğu şəhərlərdən biri ola bilər. Necə ki, Yunan coğrafiyaçı Plininin düşüncəsi də bu yöndədir. Plini, Səmud qövmünün yaşadıqları yerlərin Domatha və Hegra olduğunu yazmışdır ki, buralar dövrümüzdəki Hicr şəhəridir.

Səmud qövmündən bəhs edən, bilinən ən qədim qaynaq, Babil Kralı II Sarqonun bu qövmə qarşı qazandığı zəfərlərdən bəhs edən Babil dövlət qeydləridir (e.ə. 8-ci əsr). Sarqon, Şimali Ərəbistanda baş verən bir döyüşdə onları məğlub etmişdir. Yunanlar da bu qövmdən bəhs edir. Bu qövmün adı Aristotel, Batlamyus və Plininin yazılarında "Thamudaei", yəni "Səmudlar" olaraq qeyd edilir. Peyğəmbərimiz (s.ə.v)-dən əvvəl, təxminən 400-600 illəri arasında isə izləri tamamilə silinmişdir. (Məlumat üçün baxın: Harun Yəhya, "Qövmlərin həlakı")

Dövrümüzdə İordaniyadakı Rum Vadisi, ya da digər adıyla Petrada bu qövmün daş işçiliyinin ən gözəl nümunələrini görmək mümkündür. Belə ki, Quranda da Səmud qövmünün daş işçiliyindəki ustalıqlarından belə bəhs edilər.



İordaniyadakı məşhur Petra qalıqları

*Xatırlayın ki, O, sizi Ad qövmündən sonra xələflər etdi və yer üzündə yerləşdirdi. Siz də onun düzənliklərində qəsrlər tikir, dağlarda evlər yonursunuz. Allahın nemətlərini yada salın, yer üzündə fəsad yayaraq pis işlər görməyin.*

**(Əraf surəsi, 74)**

DÖRDÜNCÜ HİSSƏ

# Quranın riyazi möcüzələri

## Quranda söz təkrarları

Quranın indiyə qədər araşdırdığımız möcüzəvi xüsusiyyətləri ilə bərabər bir də "riyazi möcüzə"ləri vardır. Bu möcüzəyə bir nümunə, Qurandakı bəzi söz təkrarlarının verdiyi ortaq saydır. Bir-biriylə əlaqədar bəzi sözlər təəccüblü şəkildə eyni sayda təkrarlanarlar. Aşağıda bu cür sözlər və Quran içindəki təkrarlanan rəqəmlər verilmişdir.

"Yeddi göy" sözü 7 dəfə keçər. "Göylərin yaradılışı (halku səmavat)" ifadəsi də 7 dəfə təkrarlanar.

| YEDDİ GÖY (sebə səmavat) | 7 dəfə |
|---|---|
| GÖYLƏRİN YARADILIŞI (halkus səmava) | 7 dəfə |

"Gün (yevm)" tək olaraq 365 dəfə keçərkən, çoxluq yəni "günlər (eyyam və yevmeyn)" sözləri 30 dəfə təkrarlanar. "Ay" sözünün təkrar sayı isə 12-dir.

| GÜN (yevm) | 365 dəfə |
|---|---|
| GÜNLƏR (eyyam,yevmeyn) | 365 dəfə |
| AY (şehr) | 12 dəfə |

"Bitki" və "ağac" sözlərinin təkrar sayı eynidir: 26

| BİTKİ | 26 dəfə |
|---|---|
| AĞAC | 26 dəfə |

"Cəza" (qarşılıq) sözü 117 dəfə keçərkən, Quranın təməl əxlaq xüsusiyyətlərindən olan "bağışlama" ifadəsi, bu sayın tam 2 misli qədər yəni 234 dəfə təkrarlanar.

| CEZA | 177 dəfə |
|---|---|
| BAĞIŞLAMAQ | 2x117=234 |

“De” sözlərini saydığımızda çıxan nəticə 332-dir. “Dedilər” sözünü saydığımızda da eyni rəqəmi əldə edərik.

| DE | 332 dəfə |
|---|---|
| DEDİLƏR | 332 dəfə |

“Dünya” sözü və “axirət” sözünün təkrarlanma sayı da eynidir: 115

| DÜNYA | 115 dəfə |
|---|---|
| AXİRƏT | 115 dəfə |

“Şeytan” sözü Quranda 88 dəfə keçər. “Mələk” sözünün təkrar sayı da 88-dir.

| ŞEYTAN | 88 dəfə |
|---|---|
| MƏLƏK | 88 dəfə |

“İman” (söz birləşmələri nəzərə alınmadan) və “küfr” sözləri Quran boyunca 25 dəfə təkrarlanar.

| İMAN | 25 dəfə |
|---|---|
| KÜFR | 25 dəfə |

“Cənnət” sözü və “cəhənnəm” sözü də eyni sayda təkrarlanar: 77.

| CƏNNƏT | 77 dəfə |
|---|---|
| CƏHƏNNƏM | 77 dəfə |

“Zəkat” sözü Quranda 32 dəfə təkrarlanarkən, “bərəkət” sözünün təkrarlanma sayı da 32-dir.

| ZƏKAT | 32 dəfə |
|---|---|
| BƏRƏKƏT | 32 dəfə |

“Yaxşılar (ebrar)” 6 dəfə təkrarlanarkən, “pislər (fuccar)” sözü isə tam yarısı qədər yəni 3 dəfə keçər.

| YAXŞILAR | 6 dəfə |
|---|---|
| PİSLƏR | 3 dəfə |

“Yay-isti” sözləri ilə “qış-soyuq” sözlərinin sayları da eynidir: 5

| YAY-İSTİ | 1 + 4 = 5 dəfə |
|---|---|
| QIŞ-SOYUQ | 1 + 4 = 5 dəfə |

“Şərab (hımr)” və “sərxoşluq (sekere)” sözləri də Quranda eyni sayda təkrarlanar: 6

| ŞƏRAB | hımr | 6 dəfə |
|---|---|---|
| SƏRXOŞLUQ | sekere | 6 dəfə |

“Ağılla düşünmək” və “nur” saylarının təkrarlanma sayı da eynidir: 49

| AĞILLA DÜŞÜNMƏK | 49 dəfə |
|---|---|
| NUR | 49 dəfə |

“Dil” və “nəsihət” sözləri bərabər sayda 25 dəfə təkrar edilər:

| DİL | 25 dəfə |
|---|---|
| NƏSİHƏT | 25 dəfə |

“Fayda” sözü 50, “zərər” sözü də 50 dəfə təkrarlanar.

| FAYDA | 50 dəfə |
|---|---|
| ZƏRƏR | 50 dəfə |

“Cəza” və “taqsırkar” sözlərinin təkrarlanma sayı da eynidir: 107

| CƏZA | 107 dəfə |
|---|---|
| TAQSIRKAR | 107 dəfə |

“Sevgi” və “itaət” sözlərinin təkrar sayı eynidir: 83

| SEVGİ | 83 dəfə |
|---|---|
| İTAƏT | 83 dəfə |

Quranda “qayıtma” və “sonsuz” sözləri bərabər sayda yer almaqdadır: 28

| QAYITMA | 28 dəfə |
|---|---|
| SONSUZ | 28 dəfə |

“Müsibət” sözü və “şükür” sözü, Quranda eyni sayda keçməkdədir: 75 dəfə

| MÜSİBƏT | 75 dəfə |
|---|---|
| ŞÜKÜR | 75 dəfə |

“Günəş (şəms)” və “işıq (nur)” sözləri Quranda 33 dəfə keçməkdədir.

| GÜNƏŞ | şəms | 33 dəfə |
|---|---|---|
| İŞIQ | nur | 33 dəfə |

* Sayarkən “nur” sözünün yalnız adlıq halları diqqətə alınmışdır.

“Doğru yola çatdıran (Elhuda)” və “rəhmət” sözlərinin təkrar sayı bərabərdir: 79

| DOĞRU YOLA ÇATDIRAN | 79 dəfə |
|---|---|
| RƏHMƏT | 79 dəfə |

Quranda “sıxıntı” sözü 13 dəfə işlənərkən, “hüzur” sözü də 13 dəfə təkrarlanmaqdadır.

| SIXINTI | 13 dəfə |
|---|---|
| HÜZUR | 13 dəfə |

“Qadın” və “kişi” sözlərinin təkrar sayı da eynidir: 23. Qadın-kişi sözlərinin Quranda təkrar sayı olan 23, eyni zamanda insan embrionunun meydana gəlməsində yumurta və spermadan gələn xromosom sayıdır.

İnsanın xromosom sayı da ana və atadan gələn 23 xromosomun cəmi olaraq 46-dır.

| QADIN | 23 dəfə |
|---|---|
| KİŞİ | 23 dəfə |

“Xəyanət” sözü 16 dəfə keçərkən, “şər atmaq” sözünün təkrar sayı da 16-dır.



| XƏYANƏT | 16 dəfə |
|---|---|
| ŞƏR ATMAQ | 16 dəfə |

“İnsan” sözü Quranda 65 dəfə keçər; insanın yaradılış mərhələlərinin sayının cəmi də eynidir:

| İNSAN | | 65 dəfə |
|---|---|---|
| TORPAQ | turabun | 17 dəfə |
| SPERMA | nutfun | 12 dəfə |
| EMBRİON | ələq | 6 dəfə |
| BİR PARÇA ƏT | medaa | 3 dəfə |
| SÜMÜK | ızamun | 15 dəfə |
| ƏT | lehmun | 12 dəfə |
| CƏMİ | | 65 dəfə |

Salavat sözü bütün Quranda 5 dəfə keçər və Allah insanlara gündə beş dəfə namaz qılmalarını bildirmişdir.

“Quru” sözü Quranda 13 dəfə keçərkən, “dəniz” sözü 32 dəfə keçməkdədir. Bu rəqəmlərin cəmi bizə 45 sayını verər. Əgər quru torpaqların Quranda bəhs edilmə sayı olan 13-ü 45-ə bölsək, 28,888888888889% rəqəmini alarıq.

Dənizlərin Quranda bəhs etmə sayı olan 32-ni 45-ə böldüyümüz zaman isə, 71,111111111111% rəqəmini alarıq. Bu nisbətlər isə, planetimizdəki su və quru hissələrinin həqiqi nisbətidir.38

| QURU | 13 dəfə | 13/45=28,888888888889 |
|---|---|---|
| DƏNİZ | 32 dəfə | 32/45=71,111111111111 |
| CƏMİ | 45 dəfə | 100% |

## Quranda əbcəd hesabı

Ərəb əlifbasındakı hər hərfin riyazi dəyəri vardır. Yəni ərəb dilində hər hərf bir rəqəmə qarşılıq gəlir. Bundan istifadə edilərək müxtəlif hesablamalar edilər. Məhz edilən bu hesaba “əbcəd hesabı”, ya da “hisabı cümel” deyilir.39

Arap alfabesinin sıra ve sayısal değerleri

| Sıra değeri | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Arapça harfler | ا | ب | ج | د | ه | و | ز | ح | ط | ي | ك | ل | م | ن |
| Türkçe okunuşu | elif | be | cim | dal | he | vav | ze | ha | tı | ye | kef | lam | mim | nun |
| Sayısal değer | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 20 | 30 | 40 | 50 |
| Sıra değeri | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| Arapça harfler | س | ع | ف | ص | ق | ر | ش | ت | ث | خ | ذ | ض | ظ | غ |
| Türkçe okunuşu | sin | ayn | fe | sad | kaf | re | şın | te | se | hı | zel | dad | zı | ğayn |
| Sayısal değer | 60 | 70 | 80 | 90 | 100 | 200 | 300 | 400 | 500 | 600 | 700 | 800 | 900 | 1000 |

Əbcəd əlifbadakı hər bir hərfin bir rəqəmə uyğun gəlməsi xüsusiyyətindən faydalanan müsəlmanlar, bunu müxtəlif sahələrdə

istifadə etmişlər. Cifr elmi də bu üsullardan biridir.

**Ərəb əlifbasının say və riyazi dəyərləri**

| Sıra | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ərəbcə hərflər | ا | ب | ج | د | ه | و | ز | ح | ط | ي | ك | ل | م | ن |
| Azərbaycan dilində oxunuşu | əlif | bə | cim | dal | hə | vav | zə | ha | ti | ya | kəf | ləm | mim | nun |
| Ədədi dəyəri | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 20 | 30 | 40 | 50 |
| Sıra | 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| Ərəbcə hərflər | س | ع | ف | ص | ق | ر | ش | ت | ث | خ | ذ | ض | ظ | غ |
| Azərbaycan oxunuşu | sin | ayn | fa | sad | kaf | ra | şin | tə | sə | hi | zəl | dad | zi | ğayn |
| Ədədi dəyəri | 60 | 70 | 80 | 90 | 100 | 200 | 300 | 400 | 500 | 600 | 700 | 800 | 900 | 1000 |

Cifr; gələcəkdə olacaq hadisələrdən xəbər verən elmin adıdır. Buna görə simvolik şəkillər və hərflərin əbcəd sayı qarşılığı üzərində edilən açıqlamalar, bu sahə ilə məşğul olan insanların müraciət etdikləri yollardan biridir. Əbcəd ilə cifr üsulları arasındakı ən əhəmiyyətli fərq; əbcəd reallaşmış olanın, cifr isə reallaşması ola biləcək elmidir.40

Bu hesab üsulu, çox qədim tarixlərə qədər uzanan və hələ Quran endirilmədən əvvəl istifadəsi çox yayılmış olan bir yazı şəklidir. Ərəb tarixində keçən bütün hadisələr, hərflərə rəqəm dəyəri verilərək yazılar və beləcə hər hadisənin tarixi də qeydə alınmış olardı. Bu tarixlər, hər istifadə edilən hərfin xüsusi rəqəm dəyərlərinin toplanmasıyla əldə edilirdi.

Məhz bəhs etdiyimiz bu əbcəd üsulu ilə, Quranda keçən bəzi ayələr araşdırıldığında, bu ayələrin mənalarına uyğun olaraq bəzi tarixlərə uyğun gəldiyini görərik. Və bu ayələrdə bəhs edilən hadisələrin, əbcəd hesablarıyla əldə edilən tarixlərdə reallaşdığını gördüyümüzdə isə, həmin ayələrdə hadisəyə bağlı gizli bir işarə olduğunu anlayarıq (doğrusunu Allah bilir).

| ا | ل | س | ا | ع | ة |
|---|---|---|---|---|---|
| 1 + | 30 + | 60 + | 1 + | 70 + | 400 |

| و | ا | ن | ش | ق |
|---|---|---|---|---|
| 6 + | 1 + | 50 + | 300 + | 100 |

| ا | ل | ق | م | ر |
|---|---|---|---|---|
| 1 + | 30 + | 100 + | 40 + | 200 |

TOPLAM : 1390 (MİLADİ 1969)

## Quranda 19 möcüzəsi

Quranın riyazi möcüzələrinin bir başqa yönü isə 19 rəqəminin, ayələrin içinə şifrəli şəkildə yerləşdirilmiş olmasıdır. Quranda "Onun üzərində on doqquz vardır." (Muddəssir surəsi, 30) ayəsi ilə diqqət çəkilən bu rəqəm, Quranın bir çox yerində şifrələnmişdir. Bunun nümunələridən bir hissəsini belə saya bilərik:

Bəsmələ 19 hərfdir.

| ب | 1-ci hərf | ا | 8-ci hərf | ل | 15-ci hərf |
|---|---|---|---|---|---|
| س | 2-ci hərf | ل | 9-cu hərf | ر | 16-cı hərf |
| م | 3-cü hərf | ر | 10-cu hərf | ح | 17-ci hərf |
| ا | 4-cü hərf | ح | 11-ci hərf | ى | 18-ci hərf |
| ل | 5-ci hərf | م | 12-ci hərf | م | 19-cu hərf |
| ل | 6-cı hərf | ن | 13-cü hərf | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| ه | 7-ci hərf | ا | 14-cü hərf | | |

Quran 114 (19 x 6) surədən ibarətdir.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

| | | | | | |
|---|---|---|---|---|---|
| ب | 1. Harf | ا | 8. Harf | ل | 15. Harf |
| س | 2. Harf | ل | 9. Harf | ر | 16. Harf |
| م | 3. Harf | ر | 10. Harf | ح | 17. Harf |
| ا | 4. Harf | ح | 11. Harf | ى | 18. Harf |
| ل | 5. Harf | م | 12. Harf | م | 19. Harf |
| ل | 6. Harf | ن | 13. Harf | | |
| ه | 7. Harf | ا | 14. Harf | | |

İlk vəhy olunan surə (96-cı surə) sondan 19-cu surədir.

Quranın ilk vəhy edilən ayələri 96-cı surənin ilk 5 ayəsidir və bu ayələrin söz sayının cəmi 19-dur.

| خَلَقَ | الَّذِى | رَبِّكَ | بِاسْمِ | اِقْرَأْ |
|---|---|---|---|---|
| 5-ci söz | 4-cü söz | 3-cü söz | 2-ci söz | 1-ci söz |

| | | | | |
|---|---|---|---|---|
| | عَلَقٍ | مِنْ | الْاِنْسَانَ | خَلَقَ |
| | 9-cu söz | 8-ci söz | 7-ci söz | 6-cı söz |
| | الْاَكْرَمُ | رَبُّكَ | وَ | اِقْرَاْ |
| | 12-ci söz | 11-ci söz | | 10-cu söz |
| | | بِالْقَلَمِ | عَلَّمَ | اَلَّذٖى |
| | | 15-ci söz | 14-cü söz | 13-cü söz |
| | لَمْ يَعْلَمْ | مَا | الْاِنْسَانَ | عَلَّمَ |
| | 19-cu söz | 18-ci söz | 17-ci söz | 16-cı söz |

> *“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.



Fosil qeydləri — təkamülün ən böyük böhranı

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq,

qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> *"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

> *"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> *"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> *"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar".*
> *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı



Canlı növləri fosil qeydlərində ilk gündən etibarən hazır və mükəmməl şəkildə ortaya çıxır

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

## Australopithecus

## Homo habilis

## Homo erectus

## Homo sapiens

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif

bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> *“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> *"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.



İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı yoxdur

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən,

cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç

birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya



Göz və qulaqdakı qüsursuz texnologiya təsadüflərlə izah edilə bilməz

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?



Beyində görən və eşidən şüur — materialist elmin cavab verə bilmədiyi sual

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

*"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar.

Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*
>
> **(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

> *Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> *...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

FƏSİL

# Ədəbiyyat


1) Dr. Mazhar U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, ABD, 1998, səh. 68-69.

2) https://newswise.com/articles/honey-as-healer , Məqalə: 19948, National Honey Board, 1 avqust 2000

3) https://pdfs.semanticscholar.org/2966/ddee962caccc9f9b810d0e9989732c571f3a.pdf , The Open Nutraceuticals Journal, 2010, 3, 6-16 , Antioxidant Properties of Honey and Its Role in Preventing Health Disorder, M.I. Khalil, S.A. Sulaiman and L. Boukraa,

4) Allen KL, Hutchinson G, Molan PC. The potential for using honey to treat wounds infected with MRSA and VRE. First World Wound Healing Congress; Melbourne, Australia. 2000. (https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3941901 )

5) http://news.bbc.co.uk/2/hi/health/3787867.stm ; Angie Knox, "Harnessing honey's healing power", 8 iyun 2004

6) http://www.sdearthtimes.com/et0100/et0100s17.html Honey as medicine- Australia produces a world's first!, National Honey Board

7) http://www.nathalielawhead.com/candybox/the-great-date-fruit-post-conclusions-of-my-date-research

8) https://www.made.ngo/updates/blogs/item/a-date-a-day-keeps-the-doctor-away

9) https://www.ncbi.nlm.nih.gov/pubmed/21280989 , http://www.wiki-zero.net/index.php?q=aHR0cHM6Ly9lbi53aWtpcGVkaWEub3JnL3dpa2kvT3h5dG9jaW4

10) https://www.healthyfoodhouse.com/see-what-happens-to-your-body-when-you-eat-3-dates-daily

11) https://www.fragrantica.com/notes/Dates-355.html

12) https://www.nutrition-and-you.com/dates.html

13) National Geographic, cild. 165, sayı 6, səh. 777, iyun 1984

14) Bert Hölldobler-Edward O.Wilson, The Ants, Harvard University Press, 1990, səh. 227.

15) Bert Hölldobler-Edward O.Wilson, The Ants, Harvard University Press, 1990, səh. 244.

16) https://www.the-scientist.com/?articles.view/articleNo/46320/title/Brain-Listens-During-Sleep

17) https://www.health24.com/Medical/Sleep/treating-sleep-problems/Effects-of-prolonged-bed-rest-20131025

18) https://www.medicalnewstoday.com/articles/173972.php

19) https://www.medicalnewstoday.com/articles/173972.php

20) http://www.wiki-zero.net/index.php?q=aHR0cHM6Ly9lbi53aWtpcGVkaWEub3JnL3dpa2kvSGVyYWNsaXVz

21) Warren Treadgold, A History of the Byzantine State and Society, Stanford University Press, 1997, səh. 287-299.

22) http://fstav.freeservers.com/emperors/heraclius.html

23) Warren Treadgold, A History of the Byzantine State and Society, Stanford University Press, 1997, səh. 287-299.

24) http://fstav.freeservers.com/emperors/heraclius.html

25) http://www.wiki-zero.net/index.php?q=aHR0cHM6Ly9lbi53aWtpcGVkaWEub3JnL3dpa2kvRGVhZF9TZWE

26) http://www.angelfire.com/az/miracles/Archaeology.html

27) https://www.islamicboard.com/miscellaneous/800-prophecies-islam.html

28) https://thetruthisfromgod.com/2014/08/04/haman-and-pharaoh ,Walter Wreszinski, Aegyptische Inschriften aus dem K.K. Hof Museum in Wien, 1906, J. C. Hinrichs' sche Buchhandlung.

29) https://thetruthisfromgod.com/2014/08/04/haman-and-pharaoh

30) https://ohr.edu/838

31) http://www.ohr.org.il/special/pesach/ipuwer.htm

32) http://www.islamic-awareness.org/Quran/Contrad/External/josephdetail.html

33) Werner Keller, Und die Bibel hat doch recht (The Bible as History; a Conformation of the Book of Books), William Morrow, New York, 1956.

34) "Le Monde de la Bible", Archeologie et Histoire, iyul-avqust 1993.

35) G. Ernest Wright, "Bringing Old Testament Times to Life", National Geographic, cild. 112, dekabr 1957, səh. 883.

36) Mevdudi, Tefhimül Kuran, cild. 4, İnsan Yayınları, İstanbul, səh. 517.

37) Werner Keller, Und die Bibel hat doch recht (The Bible as History; a Conformation of the Book of Books), William Morrow, New York, 1956, səh. 230.

38) http://monak2.tripod.com/Peaceonline/id1.html

39) İsmail Yakıt, Türk-İslam Kültüründe Ebced Hesabı ve Tarih Düşürme, səh. 36.

40) İsmail Yakıt, Türk-İslam Kültüründe Ebced Hesabı ve Tarih Düşürme, səh. 36.

41) http://www.iol.ie/~plugin/stonecal.htm

42) https://apod.nasa.gov/apod/halley.html

43) F. F. Arbuthnot, The Construction of the Bible and the Koran, London, 1985, səh. 5.

44) Dr. Adel M. A. Abbas, Anne P. Fretwell, Science Miracles, No Sticks or Snakes, Amana Publications, Beltsville, Maryland, ABD, 2000, səh. 13.

FƏSİL

# Şəkilaltı yazıları

## səh. 17

> Aparılan klinik müşahidələr və təcrübi araşdırmalar nəticəsində, balın antibakterial və iltihab əleyhinə xüsusiyyətlərə sahib olduğu ortaya çıxmışdır. Bal, yaralardakı infeksiyanın və bu bölgədəki ölü hüceyrələrin ağrısız olaraq təmizlənməsində və yeni toxumaların inkişafında son dərəcə təsirlidir. Balın dərman olaraq istifadəsindən ən qədim tarixi kitabələrdə belə bəhs edilməkdədir. Dövrümüzdə də elm adamları və həkimlər balın yaraların müalicəsindəki təsirini yenidən kəşf etməkdədirlər.

> 20 ildir bal üzrə araşdırmaların liderliyini edən və Yeni Zelandiyadakı Waikato Universitetində biokimya professoru olan Dr. Peter Molan, balın antimikrob xüsusiyyətləri mövzusunda mütəxəssis olaraq belə deməkdədir: "Aparılan sınaqlar balın yanıq yaralarındakı infeksiyasına nəzarət etmədə, xəstəxanalarda əksəriyyətlə antibakterial məlhəm olaraq istifadə edilən gümüş sulfadiazindən daha təsirlidir və yeni toxumaların inkişafını hərəkətə keçirməkdədir."2

## səh. 21

> 10-13 sentyabr 2000-ci il tarixlərində Avstraliyanın Melburn şəhərində keçirilən "Dünya birinci yara müalicəsi konqresi"ndə, infeksiyalı yaraların müalicəsində balın istifadə edilməsi danışıldı. Yığıncaq aşağıdakı şərhlərə əsaslanır:

> "Bir çox antibakterial maddə bakteriyadan ötəri infeksiya düşmüş yaraların müalicəsində antibiotiklərə müqavimət göstərərlər. Bu vəziyyət əhəmiyyətli tibbi problem meydana gətirər. Eyni şəkildə bir çox təbii maddə də yaraların müalicəsində təsirli deyil. Ancaq bal çox fərqlidir, yaralı toxumaların müalicəsindəki istifadəsi 4 min illik keçmişə malikdir. Balda çox güclü antibakterial fəaliyyətlər mövcuddur; bu səbəbdən yaralardakı infeksiyanın təmizlənməsində və yaraların infeksiyadan qorunmasında çox təsirlidir."4

## səh. 24

> *Yer üzündə bir-birinə yaxın müxtəlif münbitli torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. Lakin Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik...*
>
> **(Rad surəsi, 4)**

**səh. 38**

QÜDS

ÖLÜ DƏNİZ

**səh. 39**

Bizanslıların farslara məğlub olduğu döyüşün reallaşdığı Ölü dəniz hövzəsi. Yuxarıda bu bölgənin peykdən çəkilmiş şəkli görülməkdədir. Dünyanın ən alçaq bölgəsi olan Ölü dəniz ətrafı dəniz səviyyəsindən 395 metr aşağıdadır.

ARALIQ DƏNİZİ

Tel-Əviv

**səh. 41**

Ölü dəniz

**səh. 43**

Solda, Ölü dənizin peykdən çəkilmiş fotoşəkilləri görülməkdədir. Ölü dənizin dərinliyi ancaq müasir dövrdəki ölçülərlə təsbit edilə bilmişdir. Bu təsbitlər istiqamətində də "yer üzünün ən alçaq yeri"nin bu bölgə olduğu ortaya çıxmışdır.

**səh. 55**

Dövrümüzdə parçalanma üsulu ilə atom nüvəsi yarılaraq hissələrə ayrıla bilməkdədir.

atom

nüvə

neytron

kvars

**səh. 59**

19-cu əsrdə Misir heroqlifləri oxunana qədər "Haman" anlayışı bilinmirdi. Heroqliflər oxunduqda, Hamanın Fironun yaxınköməkçisi və "daş ocaqlarının başçısı" olduğu aydın oldu. (Altda, Misirdəki inşaat işçiləri) Diqqət ediləcək nöqtə, Quranda da Hamanın Fironun əmrində inşaat işlərini idarə edən bir adam olaraq deyilməsidir. Yəni Quranda, o dövrdə heç bir insan tərəfindən bilinə bilməyəcək bir məlumat verilmişdir.

**səh. 62**

Misirdə 19-cu əsrin əvvəllərində, Orta Krallıq dövrünün sonlarına aid bir papirus tapıldı. Tapılan papirus Hollandiyadakı Leiden Muzeyinə aparıldı və A. H. Gardiner tərəfindən 1909-cu ildə də tərcümə edildi. Papirusun hamısı "Admonitions of an Egyptian from a Heiratic Papyrus en Leiden" (Leidendəki papirusda bir misirlinin nəsihətləri) adlı kitabda bəhs edilməkdədir. Papirusda Misirdəki böyük dəyişiklər; aclıq, quraqlıq, kölələrin misirlilərin sərvətləri ilə

qaçması və ölkə səviyyəsindəki ölümlər təsvir edilməkdədir. Papirus, Ipuwer adındakı bir misirli tərəfindən yazılmışdı və buradakı izahatlardan bu adamın Misirdəki fəlakətlərə şəxsən şahid olduğu aydın olmaqda idi.31 Bu papirus çox mənalı olaraq fəlakətləri, Misir kübar cəmiyyətinin ölümünü, Fironun məhvini izah edən bir əl yazmasıdır.

**səh. 65**

*Beləcə, olub-keçmiş əhvalatlardan sənə danışırıq. Artıq sənə Öz tərəfimizdən Zikr vermişik. Ondan üz döndərənlər Qiyamət günü ağır bir günah yükü daşıyacaqlar.*

**(Taha surəsi, 99-100)**

**səh. 69**

Yuxarıdakı peyk fotoşəkillərdə Ərəb yarımadasının cənubunda yerləşən Ummadan bir hissə görülməkdədir. 1992-ci ildə NASA-nın kosmosdan göstərdiyi Ubar şəhərinə aid fotoşəkillərdə, antik çöl yollarına aid izlər təsbit edilmişdir. Quranda 1400 il əvvəl xəbər verilən Ad qövmü, dövrümüzün texnoloji imkanları ilə bir Quran möcüzəsi olaraq ortaya çıxmışdır.

**səh. 71**

Ölü dənizə aid fotoşəkil

**səh. 75**

Mərib məbədinin qalıqları

**səh. 76**

Yuxarıda və yan səhifədə xarabalıqlarına aid şəkilləri görülən Mərib səddi, Səba xalqının ən əhəmiyyətli əsərlərindən biri idi. Quranda bəhs edilən Arim seli ilə birgə bu sədd dağıldı və Səba dövləti iqtisadi yöndən zəifləyərək bir müddət sonra dağıldı.

**səh. 79**

Quran, Səba məlikəsi və xalqının hz. Süleymana tabe olmadan əvvəl, "Allahı buraxıb Günəşə səcdə etdiklərini" bildirməkdədir. Kitabələrdə olan məlumatlar, bunu təsdiqləməkdə, Səba xalqının şəkildəki və buna bənzər məbədlərdə Aya və Günəşə tapındıqlarını ortaya qoymaqdadır. Sütunların səthində Səba dilində yazılmış kitabələr var.

**səh. 81**

İordaniyadakı məşhur Petra qalıqları

> *Hicr əhli də elçiləri yalançı saydı. Biz onlara ayələrimizi göndərdik, lakin onlar bu ayələrdən üz döndərdilər. Onlar təhlükəsizlikdə qalmaq üçün dağlarda evlər yonurdular. Onları sübh çağı qorxunc səs yaxaladı. Qazandıqları dünya malı isə onlara heç bir fayda vermədi.*
>
> **(Hicr surəsi, 80-84)**

**səh. 89**

> *Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.*
>
> **(Nisa surəsi, 82)**

**səh. 103**

> şəkil 1: ilk 19 rəqəm

> Paskal üçbucağı riyaziyyatın cəbr və həndəsi hesablamalarda istifadə edilən arifmetik bir üçbucaqdır.

**səh. 104**

> şəkil 2: ilk 19 ədəd

**səh. 105**

> *Bu Quran aləmlərə ancaq xatırlatmadır. Siz onun verdiyi xəbəri bir vaxtdan sonra mütləq biləcəksiniz!"*
>
> **(Sad surəsi, 87-88)**

**səh. 109**

> Prof. Adel M. A. Abbasın "Science Miracles" (Elmi möcüzələr) adlı kitabı

**səh. 110**

Yuxarıdakı şəkil mukatta (başlanğıc) hərfləri ilə başlayan surələrdə, “Nun” hərfi ilə sona çatan ayələrin bölgüsünü göstərməkdədir.

**səh. 111**

Yuxarıdakı şəkildə Quranın qafiyə sisteminin 79,92%-ni meydana gətirən 4 hərfin mütənasib bir şəkildə bölgüsü görülməkdədir.

**səh. 124**

Fransız bioloq Luis Pasteur

**səh. 125**

Aleksandr Oparin

**səh. 126**

Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün son dərəcə böyük çıxılmaz vəziyyətdir.

**səh. 127**

Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində mövcud olan DNT molekulu, bunun bir nümunəsidir. DNT, dörd ayrı molekulun fərqli düzülməsindən ibarət olan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alar. İnsan DNT-si kağıza yazıldığında, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanmaqdadır. Əlbəttə bu cür fövqəladə məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız etməkdədir.

**səh. 130**

Təkamülçülərin təbii seleksiya iddiası qısa müddət içində çökmüşdür. Sürətli qaçan bir maral, ov olmaqdan xilas ola bilər; amma bu, onu bir başqa canlıya şübhəsiz ki çevirməz.

**səh. 131**

XƏYALİ ŞƏKİL

Lamark zürafələrin ceyran bənzəri heyvanlardan törədikləri kimi elmdən kənar bir fikrə inanırdı. Onun yanılmalarına görə otlara uzanmağa çalışan bu canlıların zamanla boyunları uzanmış və zürafələrə çevrilmişlərdi. Bu məntiqdən kənar iddiaya görə canlılar həyatları əsnasında qazandıqları xüsusiyyətləri sonrakı nəsilə köçürürlər, beləcə təkamülləşirdilər. Təkamülçülər bu əfsanəvi izahatı aşağıdakına bənzər xəyali sxemlərlə dəstəkləyərək dəstək olmağa çalışmışlar. 100 il əvvəlin batil inancları olaraq xarakterizə edilə biləcək bu iddianın genetika elminin inkişafıyla birlikdə heç bir dayağı qalmamışdır. Mendelin 1865-ci ildə kəşf etdiyi varislik qanunları, həyat əsnasında qazanılan xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsinin mümkün olmadığını isbat etmişdir. Beləcə Lamarkın zürafə nağılı da tarixə qarışmışdır.

**səh. 132**

> antena

> gözlər

> ağız

> ayaq

> Təkamülçülər əsrin əvvəlindən bəri milçəkləri mutasiyaya uğradaraq, faydalı mutasiya nümunəsi meydana gətirməyə çalışdılar. Ancaq on illərlə sürən bu səylərin nəticəsində əldə edilən tək nəticə, şikəst, xəstə və qüsurlu milçəklər oldu. Ən solda, normal bir meyvə milçəyinin başı və sağda mutasiyaya uğramış digər bir meyvə milçəyi.

**səh. 135**

> Təbaşir dövrünə aid bu cırcırama fosili 125 milyon illikdir. İndiki vaxtda yaşayan cırcıramalardan heç bir fərqi yoxdur.

**səh. 136**

> Təbaşir dövrünə aid bu timsah fosili 65 milyon illikdir. Dövrümüzdə yaşayan timsahlardan heç bir fərqi yoxdur.

> Bu 50 milyon illik çinar yarpağı fosili ABŞ-da tapılmışdır. 50 milyon ildir çinar yarpaqları heç dəyişməmiş, təkamül keçirməmişdir.

> İtaliyada tapılmış bu mene balığı fosili 37-54 milyon illikdir.

**səh. 139**

> SAXTA

> İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı yoxdur. Əksinə, fosil qeydləri insanlar ilə meymunlar arasında aşılmaz sərhəd olduğunu göstərməkdədir. Bu həqiqət qarşısında təkamülçülər, həqiqətdən kənar bəzi şəkil və maketlərə ümid bağlamışlar. Fosillərin üzərinə dilədikləri maskaları keçirər və xəyali yarı meymun, yarı insan üzlər meydana gətirərlər.

**səh. 151**

> Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki, xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yandakına bənzər bir vedrəyə canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Mümkün olan hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər vaxt keçsə də bu vedrədən canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

**səh. 153**

> Gözü və qulağı, kamera və səs yazan cihazları ilə müqayisə etdiyimizdə bu orqanlarımızın bəhs etdiyimiz texnologiya məhsullarından daha kompleks və qüsursuz quruluşa sahib olduqlarını görərik.

**səh. 156**

> Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirərlər. "Görürəm" deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edərik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla girmədiyi, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz dünyanı seyr edərsiniz.

KİTAB HAQQINDA

**Bu kitabda oxuyacağınız bütün məlumatlar, bizlərə açıq bir həqiqəti göstərməkdədir: Quran elə bir kitabdır ki, içində verilən xəbərlərin hamısı doğru çıxmışdır və çıxmaqdadır. Elmi mövzularda, keçmişdən və gələcəkdən verilən xəbərlərdə, ya da riyazi şifrələmələrdə o dövrdə heç bir insan tərəfindən bilinə bilməyəcək həqiqətlər ayələrdə xəbər verilmişdir. Bu məlumatların o dövrün məlumat səviyyəsi və texnologiyası ilə əldə edilməsi mümkün deyil. Əlbəttə ki, bu vəziyyət, Quranın insan sözü ola bilməyəcəyinin açıq-aşkar isbatıdır.**

Quran, hər şeyi yoxdan var edən və elmi ilə bütün varlıqları əhatə edən Uca Allahın sözüdür. Allah bir ayəsində, Quranla əlaqədar olaraq, "...Əgər o, Allahdan başqasının qatından olsaydı, şübhəsiz içində bir çox ziddiyyətlər tapacaqdılar" (Nisa surəsi, 82) buyurmaqdadır. Quranın içində bəhs edilən hər məlumat, bu İlahi kitabın bilinməyən gizli möcüzələrini ortaya qoymaqdadır. İnsana düşən isə, Allahın endirdiyi bu İlahi kitaba sıx sarılmaq və onu özünə yol göstərici olaraq qəbul etməkdir.

— HARUN YƏHYA —

**MÜƏLLİF HAQQINDA**

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.